İnam indeksi 05

Yanvar-mart / 2021

# STM

## PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

### ANALİTİK HESABAT




SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

İNAM İNDEKSİ / 05
Xüsusi buraxılış

Yanvar-mart 2021

# PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

Sosioloji sorğu əsasında hazırlanmış
**ANALİTİK HESABAT**

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti
Sosial-iqtisadi təhlil departamenti

Bakı - 2021

**Buraxılışa məsul:** Elşad Mirbəşir oğlu
**Redaktor:** Aqşin Məmmədov
**Dizayner:** Qurban Cəlilov

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2021

*“Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmayıb. Hər bir qərarın arxasında bu məqsəd, bu vəzifə dayanıb. Artıq biz gəlmişik və heç kim bundan sonra bizi buradan çıxara bilməz… Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Çünki bu torpaqların sahibləri bizik – Azərbaycan xalqıdır”.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# MÜNDƏRİCAT

**GİRİŞ**.....5

**TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ**.....8

**I BÖLMƏ. PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ**.....11
1.1. Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətinə münasibət .....11
1.2. Prezidentin həyata keçirdiyi islahatlar müasir idarəetmənin əsas prinsiplərindən biri kimi. Cəmiyyət hansı sahələrdə daha çox islahatların aparılmasını gözləyir?.....13
1.3. Prezidentin Türk Şurasının Zirvə görüşündəki çıxışına münasibət.....15

**II BÖLMƏ. ALİ BAŞ KOMANDANIN HƏRBİ-SİYASİ STRATEGİYASI İCTİMAİ RƏYDƏ**.....17
2.1. 11 yanvar razılaşmasına münasibət.....17

**III BÖLMƏ. PREZİDENTİN İNFORMASİYA SİYASƏTİ İCTİMAİ RƏYDƏ**.....19
3.1. Prezidentin yerli və beynəlxalq mediaya müsahibələrinə münasibət.....19
3.2. Media sahəsində həyata keçirilən islahatlara münasibət.....20
3.3. Prezidentin ictimai-siyasi fəaliyyətinə dair informasiya mənbələri.....21

**IV BÖLMƏ. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ PLANLARI VƏ GÖZLƏNTİLƏR**.....23
4.1. Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərlərinə münasibət.....23
4.2. Qarabağa Böyük Qayıdış planlarına münasibət.....24
4.2.1. İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya layihələrinə münasibət.....26
4.3. Prezidentin işğaldan azad edilmiş ərazilərdə tarix, mədəniyyət və dini abidələrin bərpası ilə bağlı fəaliyyətinə münasibət.....28
4.4. Vətən müharibəsindən sonrakı dövr üçün əsas gözləntilər.....30

**V BÖLMƏ. İNAM VƏ ETİMADIN DİNAMİKASI**.....33
5.1. Prezidentə inam və etimad.....33
5.2. Milli Məclis və məhkəmə institutlarına inam və etimad.....34
5.3. İcra hakimiyyəti orqanlarına inam və etimad.....34
5.4. Prezidentin vətəndaşların vəziyyətindən məlumatlılıq səviyyəsinə münasibət.....37
5.5. Vətəndaşları narahat edən əsas problemlər.....38
5.6. Vətəndaşların Prezidentdən əsas gözləntiləri.....41

**VI BÖLMƏ. SİYASİ PROSESLƏRDƏ İŞTİRAKÇILIQ**.....42
6.1. Siyasi partiyalar sistemində baş verən dəyişikliklər.....42
6.2. Seçkilərdə iştirakçılıq səviyyəsi.....43

**VII BÖLMƏ. BEYNƏLXALQ TƏŞKİLATLARIN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ**.....45
7.1. Beynəlxalq təşkilatların fəaliyyətinə münasibət.....45

**NƏTİCƏ**.....48

# GİRİŞ

Azərbaycan Respublikası Prezidentinin fəaliyyəti ilə bağlı ictimai rəyin öyrənilməsi və dinamikasının izlənilməsi dövri və sistemli olaraq ilk dəfə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən həyata keçirilib. Təqdim edilən növbəti hesabat bu silsilədən olub, 2021-ci ilin birinci rübünü - yanvar-mart aylarını əhatə edir. Sosioloji sorğu əsasında hazırlanmış analitik hesabatda ölkə Prezidentinin bəhs edilən müddətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə ictimai münasibətin monitorinqi, əvvəlki dövrlə müqayisəli dinamikası və təhlili öz ifadəsini tapıb.

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 1-12 aprel 2021-ci il tarixlərində keçirilmiş sorğunun - ictimai rəyin rüblük monitorinqinin nəticələri göstərir ki, Prezident İlham Əliyevin cari ilin yanvar-mart ayları ərzində xüsusilə postmüharibə dövründə beynəlxalq və daxili müstəvidəki fəaliyyəti əhali tərəfindən milli maraqların qorunması, ümummilli rifahın, sülhün və təhlükəsizliyin, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin olunması məqsədilə davamlı işlərin həyata keçirilməsi, regional əməkdaşlığın inkişaf etdirilməsi, siyasi qüvvələr arasında dialoq mühitinin yaradılması, 2019-cu ildən başlayan genişmiqyaslı islahatların davam etdirilməsi baxımından olduqca təsirli və əhəmiyyətli hesab olunur. Prezidentin cari ilin yanvar-mart ayları ərzindəki çoxşaxəli fəaliyyəti onun ictimai rəydəki pozitiv imicini daha da gücləndirib.

**Təqdim edilən rəy sorğusunda respondentlərə aşağıdakı istiqamətlər üzrə suallar ünvanlanıb:**

- ❒ Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə səmərəliliyinin dəyərləndirilməsi;
- ❒ Müasir idaəetmənin əsas prinsiplərindən biri kimi islahatların ictimai rəydə dəyərləndirilməsi;
- ❒ Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərlərinə və Böyük Qayıdış planları/təşəbbüslərinə ictimai münasibət;
- ❒ Əhalinin Vətən müharibəsindən sonrakı dövr üçün əsas gözləntilərinin müəyyənləşdirilməsi;
- ❒ Prezidentin media nümayəndələrinə müsahibələrinin və media sisteminin təkmilləşdirilməsi məqsədilə aparılan islahatların səmərəliliyinin öyrənilməsi;
- ❒ Prezidentə inam və etimadın dinamikasının müəyyənləşdirilməsi;
- ❒ Prezidentin təşəbbüsü ilə siyasi qüvvələr arasında dialoq mühitinin yaradılması və siyasi partiyalar sistemində baş verən dəyişikliklərin dəyərləndirilməsi;
- ❒ Beynəlxalq təşkilatların fəaliyyətinə ictimai münasibətin öyrənilməsi.

Ötən dövrlərdə olduğu kimi, 2021-ci ilin yanvar-mart ayları ərzində də dövlət başçısının fəaliyyətində siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan, rəsmi xronikada, eləcə də yerli və xarici mediada geniş işıqlandırılan, beynəlxalq ictimai rəydə də gündəmə çevrilən və yadda qalan hadisələr yer alıb.

❒ **Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərləri ictimai rəydə: Böyük Qayıdış planları və təşəbbüsləri.** Dövlət başçısının işğaldan azad edilmiş ərazilərə səfərləri çərçivəsində bərpa və quruculuq işləri yönündə fəaliyyəti 2021-ci ilin birinci rübündə ən diqqətçəkən məqamlardan biri olub. Təsadüfi deyil ki, respondentlərin əksəriyyəti Prezidentin azad edilmiş ərazilərə səfərlərini Qarabağın dirçəlişinin və əhalinin işğaldan azad edilmiş ərazilərə qayıdışının tezliklə reallaşmasının, Ali Baş Komandanın bütün quruculuq tədbirlərinə bilavasitə rəhbərlik etməsinin, Azərbaycanın ərazi bütövlüyünün təminatının, Prezidentin tarixi abidələrə xüsusi önəm verməsinin, işğaldan azad olunmuş ərazilərimizdə sabitlik və təhlükəsizliyə təminatın, Böyük Qayıdışa Prezidentin verdiyi əhəmiyyətin, Vətənə, xalqa, milli-mənəvi, tarixi və mədəni dəyərlərə verilən xüsusi önəmin, Ermənistandakı qüvvələrə və onların havadarlarına xəbərdarlığının və informasiya müharibəsinə töhfə verməsinin göstəricisi kimi qeyd ediblər.

Şuşa şəhərində hərbçilərdə görüşdə və Cıdır düzündə Novruz bayramı münasibətilə müraciətində Prezident Böyük Qayıdışla bağlı hazırlıqlara birbaşa olaraq rəhbərlik etdiyini nümayiş etdirmişdir. Bu səbəbdəndir ki, Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə respondentlərin 84,6%-i tam, 12,2%-i qismən razı olduğunu bildirmişdir. İşğaldan azad edilmiş ərazilərə səfərlərində Prezident İlham Əliyev tərəfindən mühüm nəqliyyat və infrastruktur layihələrinin (Füzuli hava limanının, Füzuli-Şuşa, Füzu-

li-Hadrut, Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun, Horadiz-Ağbənd dəmir yolu xəttinin) əsasının qoyulması və bölgədə nəqliyyat-kommununikasiya dəhlizlərinin açılması sülhün dayanıqlılığının təmin olunmasına xidmət edəcəkdir.

Sözügedən ərazilərin dövlət başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyi Prezident İlham Əliyev tərəfindən dəfələrlə qeyd olunub. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının açılması da onu göstərir ki, bölgədəki enerji tələbatının ödənilməsi prosesinə artıq indidən başlanılıb. İşğaldan azad edilmiş torpaqlarda bütün işlərin planlı şəkildə aparılması və investisiyaların cəlb edilməsi üçün əlverişli mühitin yaradılması əsas prioritet kimi müəyyən edilib.

Dövlət başçısı tərəfindən qüdrətli dövlət və rifah cəmiyyəti qurmaq istiqamətində “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in müəyyən edilməsi ölkəmizin çoxşaxəli və dayanıqlı inkişafı hədəflərini özündə ehtiva edir. Bu prioritetlər içərisində “işğaldan azad olunmuş ərazilərə böyük qayıdış” yüksək faiz göstəricisi ilə respondentlər tərəfindən təqdir edilir. Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrası istiqamətində xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin Şuşada Cıdır düzündə Novruz bayramı münasibətilə müraciətində mühüm mesajlar vardır. 28 il əsarətdə olan Şuşa mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi, Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək, Azərbaycan xalqının irsini silmək istəyirdi, lakin Şuşada Azərbaycanın milli ruhu qorundu. İşğaldan azad olunmuş ərazilərə səfərlərində Prezident İlham Əliyev bütün dünyaya nümayiş etdirir ki, bu ərazilər tarixi Azərbaycan torpağıdır və burada vətəndaşlarımız yaşayacaq, qurub-yaradacaqlar.

❒ **Koronavirusla mübarizədə qlobal həmrəyliyin təşviq edilməsi.** Prezident İlham Əliyevin qlobal çağırışlara, eyni zamanda milli maraqlarımıza tam cavab verən uğurlu xarici siyasəti nəticəsində ölkəmiz həm də beynəlxalq əməkdaşlıqda çox etibarlı tərəfdaş sayılır. Prezidentin **“...bizim sözümüz imzamız qədər keçərlidir, etibarlıdır, güvəniləndir...”** fikri müdrik və uzaqgörən siyasətin təməl prinsiplərindəndir. Martın 23-də BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə “COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi” adlı qətnamənin qəbul edilməsi Prezident İlham Əliyevə və Azərbaycana dünyada böyük etimadın və hörmətin növbəti təzahürüdür. BMT-də qəbul edilmiş bu qətnamə əslində Prezident İlham Əliyevin 1 fevral tarixində Azərbaycan Dövlət Televiziyasına verdiyi müsahibəsində Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin COVID-19 əleyhinə peyvəndlərin dünya miqyasında ədalətsiz və qeyri-bərabər bölüşdürülməsinə laqeyd qalmayacağı ilə bağlı ifadə etdiyi mövqeyə uyğun olaraq irəli sürülüb. Prezidentimizin pandemiya ilə bağlı əvvəlki təşəbbüsləri kimi, bu təşəbbüs də qısa müddət ərzində qlobal dəstək qazanıb. Məhz dövlət başçısının təşəbbüsünə uyğun olaraq, BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamədən əvvəl 5 mart 2021-ci il tarixində Qoşulmama Hərəkatının Nyu-York şəhərində fəaliyyət göstərən Əlaqələndirmə Bürosu tərəfindən də müvafiq mövzuda komunike qəbul edilmişdi. BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında COVID-19 əleyhinə peyvəndlərin ədalətsiz və qeyri-bərabər bölüşdürülməsi, mövcud ədalətsizliyə və ayrı-seçkiliyə son qoyulmasında, pandemiyanın aradan qaldırılmasında, xüsusən də BMT-nin Dayanıqlı İnkişaf Gündəliyində təsbit olunmuş məqsəd və hədəflərə doğru qarşıya çıxan əsas əngəllərə diqqəti çəkir.

❒ **Xarici siyasət, beynəlxalq təşəbbüslər və informasiya təbliğatı.** Vətən müharibəsində qazanılan qələbədən sonra yaranmış yeni geosiyasi reallığı nəzərə alaraq xarici siyasət sahəsində yeni prioritetlərin müəyyənləşdirilməsi Prezidentin hesabat dövründəki fəaliyyətinin strateji xəttini təşkil edib.

Moskvada Rusiya Prezidenti Vladimir Pu-

tin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilmiş görüşdə 10 noyabr 2020-ci il tarixli Bəyanatın davamı olaraq imzalanan 11 yanvar razılaşması Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı MR-i birləşdirəcək Zəngəzur dəhlizinin tikintisi ilə bağlı prioritetləri müəyyənləşdirib, ölkəmizin əməkdaşlığa, sülhə, inkişafa açıq olduğunu bir daha göstərib.

Bundan başqa, cari ilin birinci rübündə "Azərbaycan Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında” Anlaşma Memorandumunun imzalanması uzun müddətdir davam edən fikir ayrılıqlarını ortadan qaldırmaqla yanaşı, Xəzər dənizində yeni əməkdaşlıq formatının əsasını qoymuşdur. Qeyd edək ki, ötən ilin sonlarında Cənub Qaz Dəhlizinin sonuncu seqmenti TAP-ın tam istifadəyə verilməsi ilə Azərbaycan qazı Avropa bazarına çatdı. Ökəmizin bu tarixi nailiyyəti sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edildi. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclasında bildirilmişdir ki, kəmərin uzunluğu 3500 kilometrdir və layihə 7 ölkəni birləşdirir. Layihənin reallaşdırılması həmin ölkələr arasında sıx əməkdaşlıq sayəsində mümkün olmuşdur. Boru xətti çox mürəkkəb coğrafi məkanlardan, hündürlüyü 2500 metr olan dağlardan, 100 kilometrdən artıq hissəsi isə Adriatik dənizinin dibindən keçir. Cənub Qaz Dəhlizi ən yüksək ekoloji standartlara cavab verir və bu, həmin layihənin planlaşdırılması və icrası zamanı başlıca şərt olmuşdur. Azərbaycan Cənub Qaz Dəhlizinin həyata keçirilməsinin hər dörd seqmentində - “Şahdəniz”, Cənubi Qafqaz boru kəməri, TANAP və TAP-da iştirak etmişdir.

Tədqiq olunan dövr ərzində Azərbaycanla ICESCO arasında əməkdaşlığın dərinləşdirilməsi müşahidə edilmişdir. Münasibətlərin daha da yaxşılaşdırılması istiqamətində əsas amil kimi Vətən müharibəsi başlayandan bir neçə gün sonra – 2020-ci ilin oktyabr ayının əvvəlində ICESCO-nun Azərbaycanın ədalətli mövqeyinə dəstəkləyici bəyanat verməsi və qərarlar qəbul etməsini qeyd etmək olar. Azərbaycan islam həmrəyliyi ilə bağlı məsələləri həmişə güclü təşviq etmiş və ICESCO Azərbaycanda çoxsaylı tədbirlər keçirmişdir. Rəsmi Bakı həmişə müsəlman ölkələri arasında birliyə çağırış etmişdir. ICESCO-nun Azərbaycanda açılacaq regional mərkəzi gələcəkdə islam həmrəyliyinin güclənməsinə, islam mədəni irsinin qorunmasına mühüm töhfələr verəcək. Rəy sorğusunda Azərbaycanla ICESCO arasında daha sıx əlaqələrin formalaşması əhali tərəfindən də təqdir edilmişdir

Bununla yanaşı, xüsusi vurğulanmalıdır ki, 2017-ci ildən UNESCO-ya rəhbərlik edən Odri Azulayın ölkəmizə qarşı qərəzli münasibəti hiss olunmaqdadır. 30 ilə yaxın müddət ərzində torpaqlarımızı işğal altında saxlayan, Azərbaycan mədəniyyətinin izlərini saxtalaşdıran, xalqın mədəni irsini məhv edən, ərazilərdə qeyri-qanuni məskunlaşdırma aparan, qədim Qafqaz Albaniyasının kilsələrini erməni kilsələrinə çevirən, cinayət predmeti olan çoxsaylı əməllər törədən, şəhər və kəndlərimizin adlarını dəyişdirən, hətta xristian dini abidələrinin mənşəyini dəyişdirən Ermənistana qarşı hər hansı tədbir görülməsinə çağırış etməyən UNESCO-nun 44 günlük müharibədən sonra xristian abidələri haqqında əsassız çağırışları əhalinin bu quruma olan etibarına, qurumun tərəfsizliyinə və obyektivliyinə böyük təsir etmişdir.

Prezidentin informasiya siyasətinin həyata keçirilməsi və informasiya hücumu yönündə fevralın 26-da Xocalı soyqırımının 29-cu ildönümü günündə keçirdiyi 4 saatlıq mətbuat konfransında yerli və xarici jurnalistlərin suallarını cavablandırması 44 günlük müharibədən sonra Cənubi Qafqazda dəyişən geosiyasi reallıqlarla yanaşı, dövlətin hazırkı durumda prioritetlərinin nədən ibarət olması ilə bağlı geniş auditoriyaya ünvanlanan mühüm mesajlarla yadda qalmışdır.

Beləliklə, 2021-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai münasibətin və Prezidentə inam indeksinin öyrənilməsi üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən keçirilən sorğunun nəticələri bunu deməyə əsas verir ki, postmüharibə dövrünün reallıqları və çağırışları fonunda Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı onun həyata keçirdiyi milli maraqları əhatə edən praqmatik, sosialyönümlü siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə davam edir.

# TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

**1. Sorğunun əhatə dairəsi**

Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon (Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran) üzrə aparılıb. Ümumilikdə 1191 respondentin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş regionlar sorğuda əhatə edilməyib.

**2. Respondentlərin seçimi**

18 yaşdan yuxarı əhali qrupları üzrə çoxpilləli stratifikasiya seçmə metodu ilə təsadüfi seçmə aparılıb, yaş və gender balansı qorunub. Seçmənin sayı əsasında statistik xəta əmsalı 2,8%, əminlik dərəcəsi 95%-dir.

**3. Tədqiqat yanaşması və sorğunun aparılma üsulu**

Tədqiqat yanaşması olaraq, təkrar tədqiqat dizaynı seçilib. Metodologiya elmində təkrar tədqiqat dizaynı uzunmüddətli dövrdə tendensiyaları ölçmək üçün istifadə edilir. Tədqiqatın aparılmasında kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan və SurveyToGo proqramından istifadə edilib. Sahə işi 2021-ci ilin 01-12 aprel tarixlərində aparılıb. Sorğunun keçirilməsində üz-üzə anket üsulundan istifadə edilib.

**4. Etik prinsiplər**

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

**5. Təlimat**

Sorğunun keçirilməsində 14 intervüyer və 2 koordinator iştirak edib. İntervüyerlər üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən təlimat qaydaları hazırlanıb. İntervüyerlər işə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən keçirilən təlimdə iştirak ediblər. Təlimdə sorğunun məqsədi, respondentlərə ünvanlanan suallar və respondentin seçilməsi üsulu barədə geniş izahatlar verilib. Bundan başqa, sorğu anketindəki hər bir sual üzrə geniş izahlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

**6. Məlumatların işlənilməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün $X^2$ və korrelyasiya testindən istifadə edilib.

**Qeyd:** Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.

**7. Prosesə nəzarət**

Keçirilən sorğuların keyfiyyətinə nəzarət etmək üçün hər bir intervüyerin gün ərzində keçirdiyi sorğuların sayı, keyfiyyəti təhlil edilib. Həmçinin, proqramın GPS funsksiyası vasitəsilə intervüyerlərin getdiyi ünvanlar, bir ünvanda qalma müddəti gündəlik yoxlanılıb. Bundan əlavə, hər bir sorğuya və sorğuda olan bütün suallara ayrı-ayrılıqda sərf olunan vaxtın müddətinə nəzarət edilib.

## Tədqiqatın metodoloji prinsipləri

| | |
|---|---|
| **Respondentlərin sayı** | 1191 respondent |
| **Respondentlərin seçimi** | 18 yaşdan yuxarı əhali qrupları üzrə çoxpilləli stratifikasiya seçmə metodu ilə təsadüfi seçmə aparılıb |
| **Əminlik intervalı və xəta dərəcəsi** | 95% və 2.8% |
| **Məlumat toplama metodu** | Sorğunun aparılmasında üz-üzə anket sorğusu üsulundan istifadə olunub |
| **Sorğunun tarixi** | Sahə işi 2021-ci ilin 01-12 aprel tarixlərində aparılıb. |
| **Tədqiqatın əhatə dairəsi** | Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə- Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ). Naxçıvan MR və işğaldan azad edilmiş ərazilər əhatə edilməyib |
| **Respondentlərin seçimində tətbiq edilən meyar** | Yaş və gender balansı |
| **Məlumatların işlənilməsi və təhlili** | Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə birbaşa bazada toplanan məlumatlar SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. |

# RESPONDENTLƏRİN SOSİAL-DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ

### Cins tərkibi




### Yaş




### Təhsil səviyyəsi




### Məşğuliyyət



# I BÖLMƏ.
# PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

## 1.1. Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətinə münasibət

Prezidentin fəaliyyətinə ictimai münasibətin dinamikasını öyrənmək məqsədilə Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən rüblük intervallarda aparılan sorğularda respondentlərə ölkə başçısının müxtəlif istiqamətlərdəki fəaliyyəti ilə bağlı suallar verilib. Demək olar ki, əhalinin mütləq əksəriyyəti Prezidentin rəhbərliyi ilə ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətində görülən işləri “çox yaxşı” (86.5%), yaxud “əsasən yaxşı” (12%; ümumilikdə 98.5%) dəyərləndirir. Müqayisə üçün bildirək ki, 2020-ci ilin dekabr ayında keçirilmiş sorğuda sözügedən sual üzrə nəticələr müvafiq olaraq 94.6% və 5.0% (ümumilikdə 99.6%) olub. Yüksək göstəricilər İlham Əliyevin prezidentliyi dövründə ordu quruculuğu və ordunun təkmilləşdirilməsi sahəsində apardığı məqsədyönlü siyasətin və 44 günlük Vətən müharibəsinin nəticələri fonunda başadüşüləndir.

STM tərəfindən dövlət başçısının fəaliyyətinin ictimai rəydə dəyərləndirilməsi üzrə aparılan həm indiki, həm də bundan əvvəlki sorğularda əhalinin böyük əksəriyyətinin çox yüksək qiymətləndirdiyi sahələrdən biri də dövlət başçısının xarici siyasət istiqamətindəki fəaliyyətidir. 44 günlük Vətən müharibəsinin doğurduğu reallıqlar bir daha göstərdi ki, Azərbaycan 30 illik müstəqilliyi dövründə, Prezident İlham Əliyevin təbirincə desək, daxili siyasətinin davamı olan xarici siyasətdə ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlıq formatlarından – diplomatiya təcrübəsində yeni metodlardan geniş istifadə etməklə qələbəmizi şərtləndirən və sonrakı dövrdə möhkəmləndirən bir sıra uğurlara imza atmışdır. Ümumiyyətlə, xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb, həssas bölgəsində – coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, mədəniyyət kontekstində sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də postmüharibə dövründə müstəsna əhəmiyyətə malikdir.

2021-ci ilin aprel ayında keçirilmiş sorğunun nəticələrinə əsasən, əhalinin mütləq əksəriyyəti Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyətini müxtəlif dərəcələrdə “yaxşı” (69.4% “çox yaxşı”, 22.0% “əsasən yaxşı”, ümumilikdə - 91.4%) qiymətləndirir. Müqayisə üçün qeyd edək ki, 2020-ci ilin dekabr ayında aparılmış sorğuda respondentlərin Prezidentin xarici siyasətinə münasibəti belə olmuşdur: 85.1% - “çox səmərəli”, 10.4% “əsasən səmərəli” (ümumilikdə 95.5%).

Bu sorğuda da Prezident tərəfindən aparılan kadr islahatlarına müsbət ictimai münasibət özünü göstərib. Belə ki, sorğuda iştirak edənlərin 43.7%-i bu istiqamətdə “çox yaxşı”, 35.0%-i isə “əsasən yaxşı” cavablarını seçib. Qeyd edək ki, 2020-ci ilin iyun ayında keçirilən sorğuda “çox yaxşı” variantı 53.9%, dekabr ayında keçirilən sorğuda isə 65.4% respondent tərəfindən seçilib.

Həm 2020-ci ilin dekabr ayında, həm də cari sorğuda kadr islahatlarını səmərəsiz (“çox pis”) qiymətləndirən respondentlərin çəkisi demək olar ki eynidir: müvafiq olaraq: 8.2% və 8.3%.

Qeyd edək ki, aparılan kadr islahatlarından razılıq 18-25 yaş qrupunda daha yüksək, 26-35 və 46 yaşdan yuxarı qruplarda daha aşağıdır. İşsizlərin kadr islahatlarından razılığı digər qruplardan daha aşağı, dövlət sektorunda çalışanlar və fərdi əmək fəaliyyəti ilə məşğul olanlarda isə daha yuxarıdır. Regional olaraq nəzər yetirsək Lənkəran kadr islahatlarına dair razılığın ən yüksək, Abşeron isə ən aşağı olduğu iqtisadi rayon kimi fərqlənir.

Koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə Azərbaycanda həyata keçirilən tədbirlər bir daha sübut etdi ki, hər bir azərbaycanlının sağlamlığı və rifahı dövlətin diqqət mərkəzində saxladığı prioritet istiqamətlərdir. Prezidentin vətəndaşların sağlamlığını daim diqqətdə saxlaması əhali tərəfindən yüksək qiymətləndirilir. Belə ki, rəyi öyrənilənlərin 83.4%-i əhalinin sağlamlığının qorunması istiqamətində Prezidentin gördüyü işləri müxtəlif dərəcələrdə səmərəli (54.9% “çox səmərəli”, 28.5% “əsasən səmərəli”) qiymətləndirib. 9.8% respondent isə əks mövqedən (“çox pis”) çıxış edib. Qeyd edək ki, 2020-ci ilin dekabr ayında respondentlərin bu suala cavabları belə olub: 70.5% “çox səmərəli”, 19.4% “əsasən səmərəli” (ümumilikdə 89.9%). 2020-ci ilin iyun ayında

keçirilən sorğuda bu məsələ nisbətən başqa formada soruşulub (“Səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində”) və nəticələr müəyyən qədər fərqlənib. Belə ki, respondentlərin 46.7%-i görülən işləri “çox səmərəli”, 32.6%-i isə “əsasən səmərəli” qiymətləndirib. Həm 2020-ci ilin dekabr, həm də 2021-ci ilin aprel aylarında keçirilmiş sorğulardan fərqli olaraq (9.8%), 2020-ci ilin iyun ayında keçirilmiş sorğuda bu sahədə aparılan siyasətə mənfi münasibət bildirənlər 17.1% təşkil edib.

Əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirləri müsbət qiymətləndirənlər korrupsiyaya qarşı mübarizə sahəsində reallaşdırılan tədbirləri də təqdir ediblər (r=0.505 (p<0.01)).

Onu da əlavə edək ki, yuxarıdakı sualla birbaşa bağlılığı olan Prezidentin pandemiyanın mənfi təsirlərinin aradan qaldırılması istiqamətindəki fəaliyyətini respondentlərin 55.7%-i “çox yaxşı”, 30.1%-i “əsasən yaxşı” qiymətləndirib (ümumilikdə 85.8%).

Pandemiyanın mənfi təsirlərinin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müsbət qiymətləndirənlərin əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirlərə münasibəti də müsbətdir (r=0.573 (p<0.01)).

Həmçinin, əhalinin fiziki və mülki təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərə müsbət münasibətini ifadə edənlər əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirləri də qənaətbəxş hesab ediblər (r=0.580 (p<0.01)).

Prezidentin əhalinin sosial müdafiəsinin təminatı istiqamətindəki fəaliyyətini 81.9% respondent müxtəlif dərəcələrdə səmərəli hesab edir. Əks mövqedə qərarlaşanların çəkisi müvafiq olaraq 10.9%-ə (“çox pis”) və 5.2%-ə (“əsasən pis”) bərabər olub. Qeyd edək ki, bu sahədəki fəaliyyətin ictimai rəydə müsbət dəyərləndirilməsi 2020-ci ilin dekabr ayında keçirilmiş sorğuda təxminən 10% daha yüksək olub (91.4%). Əks mövqedən rəy bildirənlərin faiz göstəricisi isə 5.7% olub. Bu göstəricilər bir daha onu göstərir ki, müharibədən sonrakı dövrdə əhalinin sosial sahədəki problemləri yenidən aktuallıq kəsb etməyə, aidiyyəti qurumlardan gözləntiləri artmağa başlamışdır.

Qeyd edək ki, kadr islahatları sahəsində görülən tədbirlərə müsbət münasibət bildirənlər analoji mövqeni sosial müdafiə istiqamətində həyata keçirilən tədbirlərlə bağlı da ifadə ediblər (r=0.544 (p<0.01)).

Xatırladaq ki, 2020-ci ilin aprel və dekabr aylarında keçirilən sorğuda əldə edilən nəticələr demək olar ki, üst-üstə düşür.

Yuxarıda qeyd olunanlardan başqa, respondentlərin 45.3%-i Prezidentin qeyri-neft sektorunun və 46.7%-i kənd təsərrüfatının inkişafı, 45.8%-i korrupsiyaya qarşı mübarizə, 60%-i əhalinin fiziki və mülki təhlükəsizliyinin təmin edilməsi, 51.5%-i mədəni sahədəki islahatlar istiqamətlərindəki fəaliyyətini “çox yaxşı” qiymətləndirib.

Kadr islahatları istiqamətində həyata keçirilən tədbirlərə müsbət münasibət bildirən-

**Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini necə qiymətləndirirsiniz?**



lər kənd təsərrüfatının (r=0.551 (p<0.01)) və qeyri-neft sektorunun (r=0.576 (p<0.01)) inkişafı istiqamətində həyata keçirilən tədbirlərə də müsbət mövqedən yanaşıblar.

Əhalinin fiziki və mülki təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirləri müsbət qiymətləndirənlər kadr islahatları sahəsində görülən tədbirlərə də müsbət mövqedən yanaşıblar (r=0.503 (p<0.01)).

Korrupsiyaya qarşı mübarizə tədbirlərinə müsbət münasibətini ifadə edənlər analoji mövqeni kadr islahatları sahəsində görülən tədbirlərlə bağlı da bildiriblər (r=0.553 (p<0.01)).

Mədəni sahədəki islahatları müsbət qiymətləndirənlər əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirlərlə bağlı da analoji mövqedədirlər (r=0.529 (p<0.01)).

### 1.2. Prezidentin həyata keçirdiyi islahatlar müasir idaəetmənin əsas prinsiplərindən biri kimi. Cəmiyyət hansı sahələrdə daha çox islahatların aparılmasını gözləyir?

Azərbaycanda 2019-cu ildən sistemli şəkildə həyata keçilən kadr və struktur islahatları konseptual xarakter daşıyır və ardıcıllıqla icra edilir. Prezident İlham Əliyev 2019-cu il dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində qeyd etmişdir ki, əgər son 16 ilin tarixinə geniş nəzər salsanız, görərsiniz ki, heç bir addım təsadüfi olmayıb: **"Hər bir addımın arxasında çox böyük təhlil və böyük məqsədlər dayanır. Beləliklə, kadr islahatları zamanında aparılır. Bəlkə, beş il bundan əvvəl bu cür kadr islahatları aparmaq düzgün olmazdı, amma iki il bundan sonra da artıq gec olardı... Ümumiyyətlə, işə yanaşma tərzi dəyişir. Azərbaycan yeniləşir, Azərbaycanın yeni siması ortalığa çıxır, iqtidarın yeni siması ortalığa çıxır - müasir dövrə uyğun, cəmiyyətimizin gözləntilərinə uyğun və bizim inkişaf strategiyamıza uyğun... O kadrlar ki, bu məsuliyyəti dərk etmir, onlar əlbəttə, ən yaxşı halda vəzifədən uzaqlaşdırılır. Yaxud da onlara qarşı daha ciddi tədbirlər görülür və görüləcək".** [1]

Ölkədə aparılan kadr islahatlarına ictimai münasibəti və gözləntiləri öyrənmək üçün respondentlərə "Bu islahatların hansı sahələrdə daha dərinləşdirilmiş şəkildə aparılmasını istəyərdiniz?" sualı verilib. Respondentlərin fikrincə, elm və təhsil sahəsində genişmiqyaslı islahatların aparılmasına (65,4%) daha böyük zərurət var. Orta təhsillilər arasında elm və təhsil sektorunda islahatların dərinləşdirilməsini istəyənlər daha çoxdur.

Sosial siyasətin ən mühüm komponentlərindən biri olan təhsil sahəsinin qlobal çağırışlara, əmək bazarının tələblərinə və reallıqlara cavab verməsi ən ümdə vəzifədir. Bununla yanaşı, xüsusilə postpandemiya və postmüharibə dövrü bizi yeni çağırışlarla üz-üzə qoyub. Ölkəmizin təhsil sisteminin müasirləşdirilməsinə, elmi potensialının artırılmasına, nəticəyəyönümlü tədqiqatların aparılmasına, gənc alimlərin sosial şəraitinin yaxşılaşdırılmasına, elm sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə, aparılan elmi tədqiqatların beynəlxalq etimadlılıq qazanmasına böyük ehtiyac var.

Rəyi soruşulanların 62,2%-i düşünür ki, dərinləşdirilmiş islahatlar səhiyyə sistemində də aparılmalıdır. Xüsusilə Lənkəran, Bakı, Aran, Dağlıq Şirvan və Şəki-Zaqatala iqtisadi rayonlarının əhalisinin, həmçinin gəliri 501 manatdan aşağı olanların, ali və orta-ixtisas təhsilli və orta yaş qruplarından olanların səhiyyə sistemində islahatların daha effektiv şəkildə aparılmasına dair istəyi daha yüksəkdir. Azərbaycan səhiyyəsi pandemiya sınağından məhz Prezidentin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində bir çox ölkələrə nisbətdə daha az itki ilə çıxdı. Lakin pandemiya həm də bu sahədə mövcud problemləri bir daha ortaya çıxardı və səhiyyə sisteminin köklü islahatlara ehtiyacı olduğunu göstərdi. Azərbaycan Respublikasının Səhiyyə nazirinin vəzifəsindən azad edilməsini ilkin islahatlar kimi dəyərləndirmək olar. Bununla yanaşı, icbari tibbi sığortanın səmərəli şəkildə tətbiqi, səhiyyə sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması, həkimlərin və tibb personalının əmək haqqlarının artırılması və keyfiyyətli tibbi xidmətin göstərilməsi əhalinin gözləntiləri sırasında yer alır.

Sosial müdafiə sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsi ilə bağlı 51,2% respondent öz istəyini ifadə edib. Bu sahədə cəmiyyətdə son dövrlər bir sıra problemlərin olduğu müşahidə edilir. Xüsusilə də Vətən müharibəsi qazilərinə əlillik dərəcələrinin düzgün müəyyənləşdirilməsi, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak edən şəxslərin məşğulluğunun təmin edilməsi ilə

[1] *Prezident İlham Əliyev bir qrup yerli jurnalistə ilin yekunları ilə əlaqədar müsahibə verib. /23.12.2019/ - https://president.az/articles/35325*

bağlı istəklər var.

Daha yuxarı yaş qruplarında sosial müdafiə sahəsində dəyişikliklərin olmasını arzu edənlər üstünlük təşkil edir. Bakı və Arandan olan respondentlər arasında bu istiqamətdə islahatların dərinləşdirilməsini istəyənlər daha çoxdur.

Sosial müdafiə sahəsində islahatların dərinləşdirilməsi gözləntisi içərisində olanlar kadr islahatları (t(1115)=3.428p<0.01), korrupsiyaya qarşı mübarizə (t(1147)=2.719p<0.01), əhalinin fiziki və mülki təhlükəsizliyinin təmin edilməsi (t(1135)=2.847p<0.01) istiqamətlərində görülən tədbirləri daha aşağı qiymətləndiriblər.

Respondentlərin 47,3%-i hərbi sahədə genişmiqyaslı islahatların həyata keçirilməsinin tərəfdarı kimi çıxış ediblər. Hərbi sahədə islahatların dərinləşdirilməsini istəyənlər orta yaş qrupunda, həmçinin Bakı və Aranda daha geniş yayılıb. Vətən müharibəsinin nəticələrinin düzgün təhlil olunması, müxtəlif qoşun növlərində hərbi qulluqçuların peşəkarlığının artırılması istiqamətində təlimlərin keçirilməsi və bu sahədə müvafiq kadr islahatlarının aparılması arzu olunur.

Bununla yanaşı, respondentlər 2019-cu ildən həyata keçirilən islahatların dövlət idarəçiliyi (41,2%), iqtisadiyyat (40,5%), hüquq-mühafizə sistemi (40,3%), məhkəmə sistemi (35,2%), xarici siyasət (29,8%), siyasi sistem (27%), KİV/mətbuat (23,5%), diaspor (22,7%) sahələrində daha da dərinləşdirilmiş şəkildə aparılmasını istəyirlər.

Orta və ali təhsillilər, Bakı və Arandan olan respondentlər, həmçinin gəliri 501 manatdan aşağı olanlar arasında hüquq-mühafizə orqanlarında islahatların dərinləşdirilməsini istəyənlər daha çoxdur.

İqtisadiyyat sahəsində dərinləşdirilmiş islahatların aparılmasını istəyənlər qeyri-neft sektorunun (t(1082)=2.273p<0.05) və kənd təsərrüfatının inkişafı (t(1136)=2.185p<0.05) istiqamətində reallaşdırılan tədbirləri daha aşağı qiymətləndiriblər.

Yaş artdıqca məhkəmə sistemindəki islahatların dərinləşdirilməsini istəyənlərin sayı da artır. Bakı və Arandan olan respondentlər arasında bu sahədə dəyişikliklərin baş tutmasını istəyənlər daha çoxdur.

Məhkəmə sistemində islahatların dərinləşdirilmiş şəkildə aparılmasını istəyənlər ordu quruculuğu və ordunun təkmilləşdirilməsi (t(704)=2.298, p<0.05), sosial müdafiə (t(1165)=2.568p<0.01), həmçinin kadr islahatları (t(685)=3.975p<0.01), korrupsiyaya qarşı mübarizə (t(752)=3.009p<0.01) istiqamətlərində həyata keçirilən tədbirləri daha aşağı qiymətləndiriblər.

Xarici siyasət sahəsində dərinləşdirilmiş islahatların aparılmasını istəyənlər əhalinin fiziki və mülki təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirləri daha aşağı qiymətləndiriblər (t(542)=2.908p<0.01).

Siyasi sistemdə islahatların dərinləşdirilməsi gözləntisi içərisində olanlar kadr islahatları sahəsində həyata keçirilən tədbirləri daha aşağı qiymətləndiriblər (t(480)=2.061p<0.05).

Yaş artdıqca mətbuat sahəsindəki islahatların dərinləşdirilməsinə dair istək də artır. Bakı və Aranda bu istiqamətdə islahatların dərinləşdirilməsini istəyənlər daha çoxdur.

**2019-cu ildən daha genişmiqyaslı həyata keçirilən islahatların hansı sahələrdə daha da dərinləşdirilmiş şəkildə aparılmasını istəyərdiniz?**



Sorğuda iştirak edənlərin 69,4%-i Şuşanın mədəniyyət paytaxtı elan edilməsi fonunda yeni məmur davranışı və idarəetmə mədəniyyətinin tətbiq edilməsindən, 62.7%-i idarəetməyə daha peşəkar kadrlar cəlb etməklə yeni məmur nəslinin yaradılmasından tam razıdır. Yanvarın 6-da Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə dövlət başçısı bildirmişdir: **"Müvafiq qurumlar korrupsiyaya və rüşvətxorluğa qarşı kifayət qədər ciddi mübarizə aparmırdılar, bəzi hallarda cinayətlərə göz yumurdular. Bütün bunlar həqiqətdir. Kadr islahatları artıq buna da son qoyub. Bu gün heç kim, cinayət törətmiş insan vəzifəsindən asılı olmayaraq məsuliyyətdən boyun qaçıra bilməz. Heç kim qanundan üstün deyil. Heç kim üçün heç bir xüsusi status, heç bir imtiyaz yoxdur. Bunu hər kəs bilməlidir. Hesab edirəm, 2020-ci ilin hadisələri göstərir ki, hər kəs bunu artıq bilir".** [2]

**Kadr islahatları ilə bağlı aşağıdakı məqamlarla nə dərəcədə razısınız?**




Rəyi soruşulanların 62.5%-i Qarabağda Xüsusi nümayəndəlik təsisatının yaradılmasının yerli idarəetməyə stimul verməsindən tam razıdır. Ümumiyyətlə, xüsusi nümayəndəlik təsisatının yaranması dövlət idarəçiliyində yeni səhifədir. İşğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin təsis edilməsi ilə dövlət idarəçiliyində dövrün çağırışlarına cavab verən məmur-vətəndaş münasibətləri formalaşa və bu təsisatın bütün ölkə ərazisinə yayılması ilə bağlı müəyyən addımlar atıla bilər.

Bütün bunlara baxmayaraq, sorğuda iştirak edənlərin 53,2%-i idarəetmədə ictimai nüfuzu aşağı olan kadrların hələ də qalması fikri ilə tam razı olduqlarını ifadə ediblər. Respondentlərin 48,4%-i yeni məmur-vətəndaş münasibətlər modelinin formalaşması, 47,3%-i vəzifəsindən sui-istifadə edənlərə qarşı tədbirlərin görülməsi, 35,1%-i kadr siyasətində ictimai rəyin nəzərə alınması fikirləri ilə tam razı olduqlarını bildiriblər.

Dövlət idarəçiliyi sahəsində dərinləşdirilmiş islahatların aparılmasını istəyənlər idarəetmədə ictimai nüfuzu aşağı olan kadrların hələ də qaldığı fikri ilə daha çox razılaşıblar (t(1125)= 2.360p<0.05).

Vəzifəsindən sui-istifadə edənlərə qarşı tədbirlərin görüldüyünü deyənlər korrupsiyaya qarşı mübarizə sahəsində islahatları daha müsbət qiymətləndiriblər (r=0.404 (p<0.01))

## 1.3. Prezidentin Türk Şurasının Zirvə görüşündəki çıxışına münasibət

Prezidentin fəaliyyətində diqqət çəkən məqamlardan biri də beynəlxalq tədbirlərdə iştirak və bu tədbirlərdə etdiyi çıxışlardır. Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşü diqqət çəkən məqamları ilə yadda qalmışdır. Cari sorğuda

*[2] İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib /06.01.2021/ - https://president.az/articles/49933*

Türk Şurasının bu qeyri-formal Zirvə görüşündə Prezidentin səsləndirdiyi fikirlərə respondentlərin münasibəti öyrənilmişdir. Rəyi soruşulanların 49,1%-i düşünür ki, Prezident İlham Əliyevin Türk Şurasının 31 mart tarixli Zirvə görüşündə Vətən müharibəsindəki qələbəyə həsr olunan çıxışında Zəngəzur dəhlizinin açılmasının əhəmiyyətini vurğulaması türkdilli dövlətlər arasında birliyin gücləndirilməsinə xidmət edəcək. Zəngəzurun Azərbaycandan qopardılaraq Ermənistana verilməsi Azərbaycan, Türkiyə və İran arasında xristian dövlətinin yaradılması ideyasına xidmət edirdi. Bununla yanaşı, Azərbaycanla Türkiyənin ayrılması ilə türk dünyası da bir-birindən qopmuş oldu.

44,3% respondent bu qənaətdədir ki, həmin tədbirdə Prezident Azərbaycanın haqlı mövqeyini və Ermənistanın hərbi-siyasi məğlubiyyətinin səbəblərini tərəfdaş ölkələrin liderlərinə peşəkarlıqla, təsirli arqumentlərlə çatdırdı. Respondentlərin 43,1%-i Qarabağın gələcək quruculuğu və bərpasının onun bütün türk xalqlarının birgə əməkdaşlıq, dostluq və sülh məkanına çevrilməsini təmin edəcəyini düşünür. Sorğuda iştirak edənlərin 42,9%-i Azərbaycanın qələbəsinin türkdilli dövlətlərin regional proseslərdə iqtisadi və siyasi iştirakını artıracağını bildirib. Rəyi soruşulanların 39,7%-i bu qənaətdədir ki, Türkiyənin Azərbaycanı açıq, qətiyyətli və qeyd-şərtsiz müdafiəsi Türk Şurasının hər bir üzvü üçün nümunəyə çevriləcək. Respondentlərin 34,1%-i türkdilli dövlətlərin vahid ideallar və hüquqi-siyasi prinsiplər naminə Ermənistanın hərbi cinayətlərinə qarşı təsirli addımlar atmasına səbəb olacağını bildirirlər. Rəyi soruşulanların 22,7%-i düşünür ki, Türk Şurasına üzv dövlətlərin bir qismində gözləmə mövqeyi bu təşkilatın həlledici regional status qazanmasına imkan verməyəcəkdir. Respondentlərin 15,6%-i bu qənaətdədir ki, Türk Şurasına üzv bəzi dövlətlər əvvəlki ehtiyatlı yanaşmalarını davam etdirəcəklər.



# II BÖLMƏ.

# ALİ BAŞ KOMANDANIN HƏRBİ-SİYASİ STRATEGİYASI İCTİMAİ RƏYDƏ

## 2.1. 11 yanvar razılaşmasına münasibət

10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Bəyanatı Cənubi Qafqazda yeni geosiyasi mərhələnin başlanğıcını qoydu. Bu Bəyanatın imzalanmasından 2 ay sonra - yanvarın 11-də Moskvada üç ölkə rəhbərinin görüşü 10 noyabr üçtərəfli Bəyanatının möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Moskva görüşündə Ermənistan tərəfinin heç bir şərtinin qəbul edilməməsi, heç şübhəsiz, Azərbaycanın postmüharibə dövründəki diplomatik uğuru sayıla bilər. Ermənistanın əksinə olaraq, rəsmi Bakı Moskva görüşündə qarşısına qoyduğu əsas məqsədlərə çatmağı bacardı. 11 yanvar Bəyanatında bilavasitə 10 noyabr Bəyanatında əksini tapmış məsələlərin həlli üçün konkret addımların müəyyənləşdirildiyini qeyd edə bilərik. Xüsusilə nəqliyyat-kommunikasiya xətlərinin, yəni Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR-i birləşdirəcək Zəngəzur dəhlizinin açılışı ilə bağlı işçi qrupunun yaradılması bu sahədə Azərbaycanın bu mövqeyində qərarlı olduğunu bir daha ortaya qoydu. Prezident İlham Əliyev bununla bağlı qeyd etmişdir: **“Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq”.** [3]

Qeyd edək ki, Moskva görüşündə əldə edilmiş 11 yanvar razılaşmasına əsasən, regionda tamamilə yeni geoiqtisadi mənzərə yaranacaq, yeni nəqliyyat-kommunikasiya layihəsi reallaşdırılacaq. Mehri vasitəsilə Türkiyə-Naxçıvan-Azərbaycanın əsas hissəsi, Azərbaycan vasitəsilə Ermənistan-İran və Ermənistan-Rusiya nəqliyyat xətləri bərpa ediləcək.

Cari sorğuda respondentlərdən 10 noyabr 2020-ci il tarixli birgə bəyanatın davamı olaraq 11 yanvar 2021-ci ildə üç dövlət başçısının (Azərbaycan, Rusiya və Ermənistan) Moskvada keçirilən növbəti görüşdə əldə edilmiş razılaşmaları necə qiymətləndirdikləri də soruşulub. 46,4% respondent nəqliyyat kommunikasiyalarının – Zəngəzur dəhlizinin açılmasının regionun təhlükəsizliyi və sabitliyinə töhfə verəcəyini, 37,6%-i Rusiya və Türkiyə vasitəsilə regionun iqtisadi, nəqliyyat və ticari əlaqələrinin qurulacağını, 42,4%-i bunun qələbəmizi daha da möhkəmləndirəcəyini, 37,2%-i qələbəmizin regiona açılımlar və iqtisadi üstünlüklər qazandıracağını bildirib.

[3] *Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər. / 11.01.2021/ - https://president.az/articles/50071/print*




Qeyd edək ki, Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 2020-ci ilin 1-4 dekabr tarixlərində "Vətən müharibəsinin yekunlarına ictimai münasibət" mövzusunda keçirilən sorğuda 10 noyabr 2020-ci il tarixli birgə üçtərəfli bəyanata respondentlərin münasibəti öyrənilmişdi. Həmin sorğuya əsasən, respondentlərin böyük əksəriyyətinin (85.9%) Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan birgə bəyanata münasibəti müxtəlif dərəcələrdə müsbət (54.2% "tamamilə müsbət", 31.7% "əsasən müsbət") olub. Sorğunun nəticələrinə əsasən, 66.8% respondent belə düşünürdü ki, 10 noyabr tarixində imzalanmış bəyanat itki vermədən 3 rayonun işğaldan azad olunması ilə səciyyələnib. 61.5% respondent yuxarıdakı fikirləri təsdiq edərək, 10 noyabr tarixli üçtərəfli bəyanatın Azərbaycanın həm hərbi, həm də siyasi qələbəsini ifadə etdiyini bildirib. Bundan başqa, 1-4 dekabr 2020-ci il tarixlərində keçirilmiş sorğuda iştirak edənlərin yarısı (49.9%) Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçılarının imzaladığı üçtərəfli bəyanatın Ermənistanın tam məğlubiyyətini ifadə etdiyini qeyd edib.

# III BÖLMƏ.

# PREZİDENTİN İNFORMASİYA SİYASƏTİ İCTİMAİ RƏYDƏ

## 3.1. Prezidentin yerli və beynəlxalq mediaya müsahibələrinə münasibət

2021-ci ilin birinci rübündə ölkə və dünya mətbuatında əsas müzakirə mövzularından biri dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin fevralın 26-da - XX əsrin ən dəhşətli soyqırımı olan Xocalı faciəsinin 29-cu ildönümü günündə yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Azərbaycan həqiqətləri, II Qarabağ müharibəsinin reallıqları, postmüharibə dövrünün prioritetləri ilə yanaşı, işğalçı Ermənistana ünvanladığı mesajlar olmuşdur. 4 saatdan çox davam edən konfransda dünyanın 30-dan çox media orqanının 50-dən çox sualının cənab İlham Əliyev tərəfindən dəqiqliklə, məntiqlə, faktlar əsasında cavablandırılmasının informasiya mübarizəsinin daha da dərinləşdirilməsinə ehtiyacın olduğu hazırkı dövrdə əhəmiyyəti olduqca böyükdür. Prezident ölkəmizin mövqeyini aydın şəkildə ifadə edərək, Ermənistanın illərdir işğalçılıq siyasəti ucbatından rəzil duruma düşməsindən geniş bəhs edərək özünə güvənən, fikirlərinin dəqiqliyinə əmin olan, qəti mövqe ortaya qoyan qalib Lider kimi çıxış etdi.

Müqayisəli təhlil aparsaq dövlət başçısı İlham Əliyevin 44 günlük II Qarabağ müharibəsində 30-a yaxın xarici KİV-lərə müsahibələri də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında öz sözünü dedi. Belə ki, hər bir müsahibə Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin öyrənilməsi, işğalçı Ermənistanın 30 ilə yaxın müddətdə havadarlarının dəstəyi ilə danışıqları imitasiya naminə apardığının bəlli olması, beynəlxalq hüququn və ədalət meyarının maraqların arxasında əridiyinin açıqlanması - bir sözlə, Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından zəngin mənbədir. Bu müsahibələrin davamı olaraq dövlət başçısının müharibədən sonra, ən əsası Xocalı faciəsinin ildönümü günündə yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirməsində məqsəd qalib ölkənin Liderinin zəfərimizi şərtləndirən amilləri, o cümlədən həqiqətlərimizi bir daha dünyaya çatdırmaqdır. Bu, Azərbaycanın beynəlxalq informasiya məkanında növbəti qələbəsi oldu. Prezident faktlar əsasında Xocalı soyqırımının insanlığa sığmayan cinayət olduğunu, Xocalı faciəsi qurbanlarının da qisasının II Qarabağ müharibəsində alındığını bildirdi.

Dövlət başçısı bir daha aydın şəkildə izah etdi ki, Azərbaycanın mövqeyi beynəlxalq qanunvericiliyin norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və məsələyə ədalətli yanaşmaya əsaslanır. Prezident həmçinin xalqların sülh şəraitində yaşamasını təmin edəcək modeli də təqdim etdi. Prezident İlham Əliyev hər şeyin Ermənistan rəhbərliyinin və Ermənistan iqtidarının hansı siyasəti seçəcəyindən asılı olacağını bildirdi: **“Bizim siyasətimiz həm müharibə dövründə, həm müharibədən sonra birmənalıdır. Mən bu siyasəti qısaca və dürüst ifadə edərək bu gün də deyirəm ki, bizim hədəfimiz sülhdür. Müharibə bizə lazım deyildi. Bu, məcburi tədbir idi. Bu tədbir bütün otuz illik səmərəsiz danışıqlardan daha effektli oldu. Beləliklə, hər şey Ermənistan rəhbərliyinin müasir reallıqlara düzgün qiymət verməsindən, düzgün nəticə çıxarmasından və revanşist cəhdlərin istisna edilməsindən asılı olacaq”.** [4]

Prezident bir daha beynəlxalq auditoriyanın diqqətinə Azərbaycanın və Ermənistanın apardığı müharibənin fərqlərini çatdırdı. Azərbaycan üçün bu, azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsi olduğu faktlarla bəyan edildi. Dövlət başçısı Azərbaycanın milli maraqlarını müdafiə etməyin, münaqişə və ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının nümunəsini ortaya qoydu.

Bu amilləri nəzərə alaraq respondentlərə

*[4] İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib. /26.02.2021/ - https://president.az/articles/50738*

qeyd olunan bu məsələlərlə bağlı bir neçə sual ünvanlanıb. Onlardan ilk növbədə 2021-ci ilin fevral ayında Prezidentin yerli və xarici media nümayəndələri üçün 4 saatlıq mətbuat konfransı keçirməsi barədə məlumatlı olub-olmaması soruşulub. Rəyi soruşulanların 56,6%-i bu haqda məlumatlı olub. Məlumatı olan respondentlərin 44,5%-i həmin mətbuat konfransını tam, 54%-i qismən izləyib, 1.5%-i isə heç izləməyib.

Qeyd edək ki, xarici siyasətdə dərinləşdirilmiş islahatların aparılmasını istəyənlər Prezidentin yerli və xarici media nümayəndələri üçün keçirdiyi 4 saatlıq mətbuat konfransını daha çox izləyiblər ($X^2$ (2)=15.582, p<0.01). Bununla yanaşı, yaş artdıqca xarici siyasət sahəsindəki işlərin daha da təkmilləşdirilməsini istəyənlərin də sayı artır.

**2021-ci ilin fevral ayında Prezidentin yerli və xarici media nümayəndələri üçün keçirdiyi 4 saatlıq mətbuat konfransı barədə məlumatınız varmı?**




Prezidentin 4 dildə 30-dan çox media qurumunun 50-dən çox sualını cavablandıraraq keçirdiyi mətbuat konfransında verdiyi və dünya mediasında böyük maraqla qarşılanan mesajların informasiya cəbhəsində bundan sonrakı qələbələrdən xəbər verməsi fikri ilə respondentlərin 90,8%-i tam, 7,9%-i isə qismən razılaşdığını ifadə edib.

**Prezidentin yerli və xarici media nümayəndələri ilə keçirilən mətbuat konfransında verdiyi mesajların informasiya cəbhəsində bundan sonrakı qələbələrdən xəbər verməsi fikri ilə nə dərəcədə razısınız?**




Prezidentin keçirdiyi mətbuat konfransında respondentlərin 83,8%-i təxribat xarakterli suallara ustalıqla cavab verməsini, 75,5%-i 4 dildə mükəmməl danışdığını, 59,5%-i dünya ictimaiyyətini informasiya cəhətdən dolğun məlumatlandırmasını, 51,2%-i Azərbaycanı dünya gündəminə daşımasını, 39,6%-i cəlb edilən media qurumlarının Azərbaycanın əməkdaşlıq əlaqələrinə uyğun seçilməsini, 35,3%-i xarici media ilə yanaşı, yerli mətbuat orqanlarının da iştirakını təqdir etdiyini bildirib.

**Prezidentin keçirdiyi mətbuat konfransında daha çox nələri təqdir etdiniz?**




## 3.2. Media sahəsində həyata keçirilən islahatlara münasibət

44 günlük Vətən müharibəsi və müharibədən sonrakı dövr göstərdi ki, informasiyanın siyasi proseslərə və münasibətlərə, beynəlxalq və ölkədaxili ictimai rəyə təsir imkanları genişdir. Azərbaycanda cəmiyyət həyatının hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların və iş metodlarının tətbiq olunduğu müasir dövrdə me-

dia sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac vardır.

Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatların aparılmasına zərurət yaranmışdır.

Bu amilləri nəzərə alaraq Prezident İlham Əliyev medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalamışdır.

Sorğuda iştirak edənlər də bu fikri bölüşür ki, media sisteminin təkmilləşdirilməsi məqsədilə bu sahədə aparılan islahatlar mediada peşəkarlığı (47%), şəffaflığı (43,3%), azadfikirliliyi (46,2%), ictimai-siyasi problemlərin işıqlandırılma imkanlarını artıracaq (39,3%), həmçinin Azərbaycanın beynəlxalq media sahəsində əlaqələrini (43,8%) və reklam bazarını gücləndirəcək (25,3%), iqtisadi bazisi formalaşdıracaq (26,7%), media qurumları arasında rəqabəti dərinləşdirəcək (30,6%), Azərbaycana olan xarici informasiya hücumlarını azaldacaq (35,2%) və medianı müxtəlif qrupların təsirindən çıxaracaq (30,6%). Maraqlıdır ki, 8,7% respondent bu suala cavab verməkdə çətinlik çəkib.

KİV/mətbuat sahəsində dərinləşdirilmiş islahatların aparılmasını istəyənlər bunun mediada peşəkarlığı ($X^2$ (1)=25.559, p<0.01) və ictimai-siyasi problemləri işıqlandırma imkanlarını ($X^2$ (1)=64.833, p<0.01) artıracağı fikri ilə daha çox razılaşıblar.

**Media sisteminin təkmilləşdirilməsi məqsədilə bu sahədə aparılan islahatlardan gözləntiləriniz nələrdir?**




### 3.3. Prezidentin ictimai-siyasi fəaliyyətinə dair informasiya mənbələri

Sorğuların nəticələri və aparılan müşahidələr göstərir ki, Prezidentin yerli və xarici media nümayəndələrinə müsahibələrinə və çıxışlarına dair əsas informasiya mənbələri kimi respondent rəyində ilk sıralarda TV kanalları və sosial media platformaları qərar-

laşıb. Cari sorğuda iştirak edənlərin 76,6%-i Prezidentin fəaliyyəti ilə bağlı məlumatları televiziyadan, 53,2%-i sosial şəbəkələrdən, 8,5%-i ətrafdakı insanlardan, 6,5%-i Prezidentin sosial şəbəkə hesablarından, 5,5%-i Prezident.az saytından, 5,5%-i müxtəlif saytlardan, 4,4%-i I Vitse-prezidentin sosial şəbəkə hesablarından, 2,7%-i radiodan, 2,1%-i qəzetdən əldə etdiyini bildirib.

**Prezidentin fəaliyyəti ilə bağlı məlumatları əsasən haradan əldə edirsiniz?**




Müqayisə üçün qeyd edək ki, 2020-ci ilin yanvar-mart və aprel-iyun aylarında keçirilmiş hər iki sorğuda da müəyyən edilmişdi ki, Prezidentin fəaliyyəti və çıxışlarını əhalinin əksəriyyəti televiziyadan izləyir. Hər iki dövr üçün bu göstərici 81.1% təşkil etmişdi. Lakin sentyabr-dekabr ayları üçün bu göstərici yüksələrək 91.3% təşkil etmişdi ki, bunu da müharibə dövründə Prezidentin xalqa müraciətlərini müntəzəm olaraq məhz televiziya üzərindən etməsi ilə əlaqələndirmək olar. Halbuki, Prezidentin fəaliyyətindən və çıxışlarından xəbərdar olmaq üçün internet resurslarına, sosial şəbəkələrə müraciət edənlərin sayında azalma müşahidə edilmişdi. Bunu həmin dövrdə internet resurslarına tətbiq olunan məhdudiyyətlə əlaqələndirmək olar. Belə ki, sözügedən informasiya mənbəyi üzrə göstərici yanvar-mart və aprel-iyun aylarında müvafiq olaraq 41.7% və 49.8% təşkil etdiyi halda, dekabr ayında keçirilmiş sorğuda 29.9%-ə bərabər olub. Prezidentin sosial şəbəkə hesablarına gəlincə isə bütün il üzrə yalnız 1-2% civarında dəyişiklik müşahidə edilib. 2021-ci ilin aprel ayında keçirilmiş sorğuda isə Prezidentin fəaliyyəti ilə bağlı məlumatları sosial şəbəkələrdən izləyənlərinin faiz göstəriciləri 53.2%-ə yüksəlməsi yuxarıdakı təsbitin doğru olduğunu təsdiq edir.

# IV BÖLMƏ.

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ PLANLARI VƏ GÖZLƏNTİLƏR

## 4.1. Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərlərinə münasibət

Hərbi əməliyyatların başa çatmasından sonra Prezident İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığını sübut edir. Prezident İlham Əliyev fevralın 14-də Füzuli, Zəngilan və Laçın rayonlarına, martın 15-də Füzuli, Xocavənd rayonlarına və martın 16-da Şuşa şəhərinə səfər edib. Prezident bu səfərlərində işğal dövründə ermənilər tərəfindən törədilmiş vəhşiliklər, bütün yaşayış məntəqələrinin yerlə yeksan olunması, Azərbaycanın zəngin mədəniyyətinə vurulan ağır zərbələr, mənfur düşmənin zəngin tarixi irsimizin silinməsinə yönəlmiş əməlləri barədə öz fikirlərini bildirmişdir. Prezident bütün bu həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasının vacibliyini qeyd etmişdir: **"Beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər həqiqətləri. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər".** Səfərlər zamanı cənab Prezident tərəfindən verilən ən mühüm mesajlardan biri bu idi ki, Azərbaycan o torpaqlara qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıdıb. Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək.

Qeyd edək ki, sorğuda iştirak edən respondentlərdən Prezidentin işğaldan azad edilmiş rayonlara səfərlərinin nəyin göstəricisi olduğu və ya onlar üçün hansı məna kəsb etməsi də soruşulub. Respondentlərin fikrincə, Prezidentin azad edilmiş ərazilərə səfərləri Qarabağın dirçəlişinin və qayıdışın tezliklə reallaşmasının (61,7%), Ali Baş Komandanın bütün quruculuq tədbirlərinə bilavasitə rəhbərlik etməsinin (61%), Azərbaycanın ərazi bütövlüyünün təminatının (59,8%), Prezidentin tarixi abidələrə xüsusi önəm verməsinin (59,6%), işğaldan azad olunmuş ərazilərimizdə sabitlik və təhlükəsizliyin təminatının (58,9%), Böyük Qayıdışa Prezidentin verdiyi əhəmiyyətin (58,4%), Vətənə, xalqa, milli-mənəvi, tarixi və mədəni dəyərlərə verilən xüsusi önəmin (54,3%), bütün dünya azərbaycanlılarının Qarabağın dirçəlişinə cəlb etməsinin (54,6%), işğaldan azad edilmiş ərazilərin inkişafını və bölgəyə investisiya yatırımını stimullaşdırmasının (50,3%), Ermənistandakı qüvvələrə və onların havadarlarına xəbərdarlığının (48,3%) və informasiya müharibəsinə töhfə verməsinin (36,3%) göstəricisidir.

**Sizin üçün Prezidentin azad edilmiş ərazilərə səfərləri nələrin göstəricisidir?**






Prezidentin Qələbə tonqalını Şuşada - Cıdır düzündə qalamasını 73.9% respondent qələbə, 72%-i şəhidlərimizin qanı ilə qazanılmış Şuşa zəfərinin təntənəsi/qələbə simvolu, 65.2%-i Şuşanın Azərbaycanın mənəvi-mədəni paytaxtı olmasının dünyaya nümayişi, 64.7%-i vətənpərvərlik, 62.2%-i torpaq və bayraq sevgisi, 58.9%-i Prezidentin dəyər və ənənələrimizə sadiqliyi, 58.9%-i milli birlik, 58.4%-i ərazi bütövlüyü, 57.4%-i həmrəylik, 54.3%-i tarixi irsin xilası, 49.6%-i Qarabağda bərpa və quruculuq strategiya və planları kimi dəyərləndirib və bununla Prezidentin dünyaya mesajlar verdiyini bildiriblər.

**Prezidentin Qələbə tonqalını Şuşada - Cıdır düzündə qalaması sizdə hansı təəssüratları yaratdı və mesajları verdi?**




### 4.2. Qarabağa Böyük Qayıdış planlarına münasibət

Azərbaycan xalqı böyük zəfərlə ərazilərini Ermənistanın işğalından azad edərək, tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoymuşdur. Ölkə iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi məqsədilə artıq işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə start verilib. 2021-ci ilin dövlət büdcəsində işğaldan azad olunan ərazilərin bərpası və yenidənqurma işlərinin aparılması üçün maliyyə təminatı yaradılıb. İlkin rəqəmlərə görə, işğaldan

azad olunan ərazilərin bərpası və yenidən qurulması işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi şərəfli və məsuliyyətli vəzifələrin icrası məqsədilə dövlət büdcəsindən 2,2 milyard manatın ayrılması nəzərdə tutulub.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Fərman[5] imzalamışdır.

Bundan başqa, işğaldan azad edilmiş bütün şəhər və rayonların baş planlarının hazırlanması ilə bağlı Prezidentin tapşırığının icrası hazırda yüksək sürətlə davam etməkdədir. Eyni zamanda, işğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə ilkin olaraq pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının da tətbiqi baş tutacaq. "Ağıllı kənd" layihəsi ilkin olaraq Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq.

Azərbaycan Prezidenti bu bölgələrin elektrik təchizatının dövlət üçün prioritet olduğunu vurğulayaraq ilk növbədə Şuşa şəhərini elektrik enerjisi ilə təmin etmək üçün işlərin davam etdiyini söyləmişdir. Dövlət başçısı vurğulayıb ki, "Azərişıq" ASC artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" ASC Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən tarixi əhəmiyyətli Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşının qoyulması da xüsusi əhəmiyyətli məsələ idi. Prezidentin qeyd etdiyi kimi, Horadiz-Ağbənd dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəmir yolunu bir-birinə bağlayacaq.

Ümumiyyətlə, Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması onun çıxışlarında dəfələrlə qeyd olunub. Sorğuda iştirak edən respondentlərin mövqeyi də bu fikri təsdiq edir. Belə ki, rəyi soruşulanların 84,6%-i Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə tam, 12,2%-i qismən razıdır.

**Qarabağa Böyük Qayıdış üçün qısa müddətdə kompleks tədbirlərin görülməsi ölkə başçısının fəaliyyətində ən prioritet məsələdir fikri ilə nə dərəcədə razısınız?**




Respondentlərin 81,8%-i postmüharibə dövrü üçün Qarabağda Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarları (mesajları) müsbət, 1,6%-i mənfi qiymətləndirib. 7,5% respondent isə neytral mövqe sərgiləyib. Maraqlıdır ki, 8,4% respondent Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarlar haqqında heç bir məlumatının olmadığını bildirib.

Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə razı olanlar postmüharibə dövrü üçün Qarabağa Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarları (mesajları) daha çox müsbət qiymətləndiriblər ($X^2(2)=12.404$, $p<0.01$).

**Postmüharibə dövrü üçün Qarabağda Böyük Qayıdış planları ilə bağlı verilən qərarları necə qiymətləndirirsiniz?**




*[5] "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /04.01.2021/ - https://president.az/articles/49876*

**Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad olunmuş ərazilərə böyük qayıdış 5 əsas prioritetdən biri kimi müəyyən edilmişdir.[6] Ümumilikdə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:**

***1.*** *dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;*

***2.*** *dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;*

***3.*** *rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;*

***4.*** *işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;*

***5.*** *təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.*

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Sorğuda iştirak edən respondentlər Prezident tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən daha mühüm əhəmiyyət kəsb edən iki istiqaməti belə sıralayıblar: işğaldan azad edilmiş ərazilərə böyük qayıdış (71,9%), təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi (37,3%). Respondentlərin bu seçimi bir daha göstərir ki, əhalinin əsas gözləntisi işğaldan azad edilmiş ərazilərin tez bir zamanda bərpa edilməsi və insanların öz doğma torpaqlarında məskunlaşdırılmasıdır.

Qeyd edək ki, dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat (28,7%), dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət (16,7%), rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı (9%) seçimləri sonrakı sıralarda yer alıb.

Qarabağa Böyük Qayıdışın ölkə başçısı üçün prioritet olduğunu deyənlər Prezident tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışı daha ön planda görürlər ($X^2$ $(1)=2.727$, $p<0.05$).

Postmüharibə dövrü üçün Qarabağa Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarları (mesajları) müsbət qiymətləndirənlər Prezident tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışı daha prioritet hesab edirlər ($X^2$ $(2)=14.312$, $p<0.01$).




### 4.2.1. İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya layihələrinə münasibət

Vətən müharibəsində əldə edilmiş tarixi qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan

[6] *Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər /02.02.2021/ - https://president.az/articles/50474*

Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, xüsusi mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir. Bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli “hərəkətverici qüvvələri”nin möhkəmləndirilməsini – insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir.

Sorğuda işğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması istiqamətində Prezidentin qərarlarının regionda daha çox hansı sahələrin inkişafına təkan verəcəyinə ictimai münasibət də öyrənilib. Sorğuda iştirak edənlərin 68,1%-nin fikrincə, işğaldan azad edilmiş ərazilərdə nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması (yolların çəkilməsi, hava limanının tikilməsi) istiqamətində Prezidentin qərarları ilk növbədə turizmi stimullaşdıracaq. Müasir tikinti-quruculuq işlərinin aparılması sayəsində işğaldan azad edilmiş ərazilərin dünyanın ən qabaqcıl turizm məkanları sırasında daxil edilməsi dövlətin strateji prioritetləri sırasındadır. Bölgənin turizm potensialı, gözəl təbiəti və cəlbedici məkanları buna geniş imkanlar yaradır. Dövlət başçısı tərəfindən Azərbaycan mədəniyyətinin paytaxtı elan edilən Şuşanın gələcəkdə ən çox turist səfərləri ediləcək məkana çevrilməsi istiqamətində əməli, praktiki addımlar atılır.

Bundan başqa, respondentlərin 57%-i düşünür ki, işğaldan azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması bu ərazilərə investisiya axınını asanlaşdıracaq. Qeyd edək ki, Azərbaycanın dostu olan və sıx əməkdaşlıq əlaqələri qurduğu Türkiyə, Böyük Britaniya, İsrail, İtaliya və başqa dövlətlərin şirkətləri bu ərazilərdə müxtəlif sahələrə investisiya yatırmaq istədiklərini bildiriblər.

Rəyi soruşulanların 54,6%-nin qənaətinə görə, işğaldan azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması ermənilərin yaşadığı ərazilərimizdə də Azərbaycanın suverenliyini təmin edəcək. Dövlətin gələcək dövrdə strateji prioritetləri sırasında Azərbaycan ərazisində yaşayan ermənilərin ölkəmizin multikultural və tolerant mühitinə inteqrasiyasını təşkil etmək də yer alır. Bunun üçün həyat üçün zəruri infrastruktur layihələrinin icra edilməsi sayəsində Azərbaycanın cəlbediciliyini daha da artırmaq olar.

Sorğuda iştirak edənlərin 45,3%-nin fikrincə, işğaldan azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması ərazinin təhlükəsizliyinin təminatına əlavə elementlər qatacaq, öz yurd-yuvasına qayıdacaq məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün mühüm əhəmiyyət kəsb edəcək. Respondentlərin 45,1%-i bu qənaətdədir ki, işğaldan azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması həyata keçiriləcək iqtisadi layihələrin səmərəliliyini artıracaq.

**Sizcə, azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması istiqamətində Prezidentin qərarları nəyə xidmət edir?**




Bu kontekstdə onu da əlavə edək ki, 2020-ci ilin dekabr ayında keçirilmiş sorğuda işğaldan azad edilmiş ərazilərin yaxın dövrlərdə bərpası ilə bağlı bəyanatlara inam respondentlərin çoxunda müşahidə edilmişdi. Belə ki, həmin sorğuda respondentlərin 97.7%-i bu qənaətdən çıxış edib. Onların 69.6%-i bu işlərin qısa müddətdə reallaşacağını düşündüyü halda, 28.1%-i prosesin zaman alacağını qeyd edib.

## 4.3. Prezidentin işğaldan azad edilmiş ərazilərdə tarix, mədəniyyət və dini abidələrin bərpası ilə bağlı fəaliyyətinə münasibət

Son dövrlər işğaldan azad edilən ərazilərdə xristian abidələrin dağıdılması, ilkin formasının dəyişdirilməsi ilə bağlı Ermənistan tərəfindən müxtəlif saxta məlumatlar paylaşılır, hətta bununla bağlı UNESCO-ya müraciətlər olunur. Prezident İlham Əliyev yanvarın 5-də Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirmişdir: "UNESCO ilə bizim çox məhsuldar, səmimi münasibətlərimiz var və ümid edirəm ki, bu münasibətlər qorunacaq. Üç baş katiblə mənim görüşlərim olub. Onlar dəfələrlə Azərbaycanda olublar. UNESCO-Azərbaycan əlaqələrinin inkişafında onların böyük rolu var. Ona görə UNESCO-da Azərbaycanın dünya mədəni irsinə verdiyi töhfələr haqqında kifayət qədər geniş məlumat var. Niyə 30 il ərzində bu məsələ ilə bağlı UNESCO məsələ qaldırmayıb? Biz dəfələrlə müraciət etmişik, dəfələrlə. Bu müraciətlər məktublar formasında sənədləşdirilib. İki il əvvəl UNESCO-nun yeni rəhbərliyinə də belə təklif verildi ki, missiya göndərin. İşğal edilmiş torpaqlara missiya gəlsin, baxsın ki, nə günə qoyublar bizim tarixi abidələrimizi? Nə oldu UNESCO-nun rəhbərliyinin cavabı? Dedilər ki, biz məsələni siyasiləşdirmək istəmirik. Yaxşı, iki il bundan əvvəl məsələni siz siyasiləşdirmək istəmirdiniz, bəs indi niyə siyasiləşdirmək istəyirsiniz? Cavab versinlər, çox sadə bir cavab, məntiqli bir cavab. Cavab yoxdur". [7]

Bununla yanaşı, Vətən müharibəsindən sonra Azərbaycanla ICESCO arasında münasibətlər daha da genişlənmişdir. Yanvarın 13-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev bildirmişdir ki, müharibə başlayandan bir neçə gün sonra - oktyabrın əvvəlində ICESCO Azərbaycanın ədalətli mövqeyinə çox dəstəkləyici bir bəyanat verdi və qərarlar qəbul etdi. Bütün bunlar bizim birliyimizi, bizim xalqımızın birliyini nümayiş etdirir. Azərbaycan İslam həmrəyliyi ilə bağlı məsələləri həmişə güclü təşviq etmişdir. [8]

Ümumiyyətlə, Azərbaycanda bütün dini və tarixi abidələr qorunur və onlara dövlət qayğısı nümayiş olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, Bakı şəhərinin mərkəzində erməni qriqorian kilsəsi qorunub-saxlanılıb və orada erməni dilində çoxsaylı kitablar mövcuddur. Azərbaycanda sivilizasiyalararası dialoqun təşviq edilməsi, dinlərarası tolerantlığın, multikulturalizmin, birgəyaşayışın təbliği ilə bağlı çoxsaylı beynəlxalq tədbirlər təşkil edilib. Azərbaycanın multikulturalizm nümunəsi dünyanın aparıcı ali məktəblərində tədris olunur. Buna görə də xristian abidələri ilə bağlı ermənilərin qaldırdığı ajiotajın heç bir əsası yoxdur və si-

[7] *İlham Əliyev Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib /05.01.2021/ - https://president.az/articles/49907*

[8] *İlham Əliyev ICESCO-nun Baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib /13.01.2021/ - https://president.az/articles/50126*

yasi məqsədlər daşıyır. Azərbaycanda xristian abidələrinə böyük hörmətlə yanaşılır və bunun nəticəsidir ki, Şuşada Qazançı kilsəsi dövlət hesabına təmir olunur. Bununla yanaşı, Kəlbəcərin Vəng kəndində fəaliyyət göstərən Xudavəng kilsəsinə erməni zəvvarların dini bayramlarının qeyd olunması və ayinlərin icra edilməsi ilə bağlı səfərlərinə şəraitin yaradılması da Azərbaycanın milli-mənəvi dəyərlərə önəm verdiyinin və humanist siyasətinin əyani göstəricisidir.

Bunun əksinə olaraq Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni, dini abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib.

Fevralın 1-də Prezident İlham Əliyev Azərbaycan televiziyasına müsahibəsi zamanı Şuşa ilə bağlı fikirlərini qeyd etmişdir: **"Şuşa şəhərinə gəldikdə, Şuşa şəhəri mənim tərəfimdən ölkəmizin mədəniyyət paytaxtı elan edilib. Bunu hər kəs bilir və bu qərar yüksək qiymətləndirilib. Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də, dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar.** [9]

Dövlət başçısının tarix və mədəniyyət abidələrinin bərpası ilə bağlı fəaliyyətinə münasibət bildirən respondentlərin 73,9%-i belə düşünür ki, Prezidentin Azıx mağarasına getməsi işğaldan azad edilmiş bütün ərazilərdəki tarix və mədəniyyət abidələrinin bərpa ediləcəyindən xəbər verir. Sorğuda iştirak edənlərin 68,9%-i Prezident İlham Əliyevi Azərbaycan mədəniyyəti və tarixi ilə bağlı Heydər Əliyevin siyasətinin layiqli davamçısı kimi görür. Respondentlərin 67,8%-nin fikrincə, Prezidentin Şuşada Natəvanın abidəsinin açılışında iştirak etməsi, Vaqifin büstünü və məqbərəsini ziyarət etməsi Qarabağa xüsusi diqqətinin təzahürüdür. 67,2% respondent bu qənaətdədir ki, bu, Azərbaycanın tarixi-mədəni irsinə hörmətin, sevginin və qayğının göstəricisidir.

Sorğuda iştirak edənlərin 62%-nin qənaətinə görə, Prezidentin tarix və mədəniyyət abidələrinin bərpası istiqamətindəki fəaliyyəti, Şuşada "Xarı Bülbül" beynəlxalq festivalının və "Vaqif poeziya günləri"nin bərpası mədəni dəyərlərin təbliği məqsədini daşıyır. Rəyi soruşulanların 61%-nin fikrincə, Prezidentin tarix və mədəniyyət abidələrinin bərpası ilə bağlı fəaliyyəti Azərbaycanın öz tarixi və əzəli ərazilərinə sahibliyinin göstəricisi, 48,8%-nin qənaətinə görə isə ermənilərin ölkəmizə qarşı mədəni müharibəsinə qarşı daha güclü mövqenin nümayişidir.

**Prezidentin tarix və mədəniyyət abidələrinin bərpası istiqamətindəki fəaliyyətini necə xarakterizə edərdiniz?**




*9 İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak edib. /01.02.2021/ - https://president.az/articles/50466*

## 4.4. Vətən müharibəsindən sonrakı dövr üçün əsas gözləntilər

Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonrakı dövr üçün respondentlərin əsas gözləntiləri ölkəmizin siyasi-iqtisadi gücünün artacağı (60,6%), Ermənistan üzərində təsirinin daha da artacağı (46,9%) olub. Bundan başqa, respondentlərin 49,6%-i Azərbaycan və Türkiyənin regionun taleyinin müəyyənləşməsində mühüm rol oynayacağını, 45,8%-i Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qəbul edəcəyini, 32,4%-i regional əməkdaşlığın və inteqrasiyanın sürətlənəcəyini, 41,7%-i Türkiyənin regionda hərbi iştirakının artacağını, 38,7%-i isə Rusiya, Türkiyə və Azərbaycan müttəfiqliyinin güclənəcəyini düşünür.

Müqayisə üçün qeyd edək ki, 2020-ci ilin dekabr ayında keçirilmiş sorğuda respondentlərdən Azərbaycanın keçdiyi yeni mərhələdən əsas gözləntiləri soruşulmuşdu. Respondentlərin 75%-i bərpa işlərindən sonra ölkəmizdə məşğulluq və rifahın artacağını, 55.3%-i yeni iqtisadi perspektivlər üçün zəminin yaranacağını, 43.6%-i isə II Qarabağ müharibəsinin dondurulmuş münaqişələrin həlli istiqamətində presedent olacağını qeyd etmişdilər.

II Qarabağ müharibəsindən sonra Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qəbul edəcəyini deyənlər Azərbaycanın xarici siyasətini daha çox müsbət qiymətləndiriblər ($t(1131)= 5.383$ $p<0,01$).

Bu kontekstdə mövzunun davamı olaraq qeyd edək ki, Vətən müharibəsindən sonrakı dövr üçün əhalinin əsas gözləntilərindən biri də II Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçıları ilə bağlı dövlətin sosial siyasətinin düzgün həyata keçirilməsidir. Cari sorğunun nəticələri və aparılan müşahidələr göstərir ki, II Qarabağ müharibəsindən sonra əhali arasında bəzi sosial məsələlərlə bağlı narahatlığın qalması hallarına rast gəlinir. Bu amilləri nəzərə alıb respondentlərdən II Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçıları ilə bağlı dövlət siyasətinə dair münasibətləri, hansı məsələlərin daha çox diqqətdə saxlanılmasının vacibliyi də öyrənilib. Respondentlər tərəfindən II Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçıları ilə bağlı dövlət siyasətində həmin ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının (74%), həmin ailələr üçün aylıq təqaüdün miqdarının artırılmasının (70,8%), sosial problemlərinin həll edilməsinin (69,4%), müharibədə yaralananların müalicə



üçün xarici ölkələrə göndərilməsinin (67,7%), orden və medalların təsis olunması və silahlı qüvvələrin şəxsi heyətinin qəhrəmanlıqlarının yüksək qiymətləndirilməsinin (61%), əlillik dərəcələrinin düzgün təyin edilməsi (73,3%) və vaxtında müəyyən olunmasının (67,6%), müxtəlif səviyyələrdə imtiyazların verilməsinin (55,8%), onlarla aidiyyəti orqanların rəhbərlərinin birbaşa görüşlərinin keçirilməsinin (51%), həbsdə olan yaxınlarının əfv edilməsinin (37,7%) daha obyektiv nəzərə alınması qeyd olunub.

Qeyd edək ki, Azərbaycan dövləti Vətən uğrunda canından keçmiş şəhid ailələrinə, eləcə də qazilərimizə, həmçinin torpaqlarımızın düşmən işğalından azad olunmasında qəhrəmanlıq göstərmiş bütün döyüşçülərimizə diqqət və qayğı ilə yanaşır. Şəhid ailələrinin və müharibə iştirakçılarının sosial təminatının gücləndirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindən birini təşkil edir.

İnstitusional təşəbbüslər sayəsində dövlət siyasətinin sosialyönümlülüyü qorunur. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid ailələrinin təqaüdünün 500 manata, 1-ci qrup müharibə əlillərinin təqaüdünün 400 manata, 2-ci qrup müharibə əlillərinin təqaüdünün 350 manata, 3-cü qrup müharibə əlillərinin təqaüdünün isə 300 manata qədər artırılması, Milli Qəhrəmanlarımızın təqaüdlərinin 1800 manata çatdırılması, yeni bir təqaüdün - Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis olunması, onun məbləğinin 2000 manat olaraq müəyyən edilməsi də bu baxımdan xüsusi qeyd edilməlidir. Eyni zamanda, 9 mindən çox şəhid ailəsi dövlət tərəfindən fərdi evlərlə və mənzillərlə təmin edilib. 2020-ci il ərzində 1450 mənzil və fərdi ev şəhid ailəsinə, müharibə əlilinə təqdim edilib və növbəti günlərdə daha 50 evin verilməsi nəzərdə tutulub. 2020-ci ildə, həmçinin 400 müharibə əlilinə və əlilliyi olan şəxslərə avtomobillər təqdim olunub ki, bu da həmin kateqoriyadan olan insanlara yüksək diqqət nümunəsidir. Yeri gəlmişkən, 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə Prezident İlham Əliyev məcburi köçkünlər üçün nəzərdə tutulmuş evlərin şəhid ailələrinə verilməsi barədə qərar qəbul etdiyini diqqətə çatdırıb: **“Artıq göstəriş verdim ki, Dövlətqaçqınkomun balansında olan mənzillər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilsin. Kifayət qədər böyük bir proqramdır. Ona görə həm müharibəyə qədər növbədə dayanan şəhid ailələri yerləşdirilməlidir bu evlərdə. Eyni zamanda, İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin yaxınları bu evlərdə yerləşdirilməlidir. Bu, ədalətli qərardır”.**

**Prezident tərəfindən II Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçıları ilə bağlı siyasətində nələrin tətbiq edilməsini istəyərdiniz?**



Dövlətimizin başçısının tapşırıqları əsasında bu istiqamətdə müvafiq tədbirlər də həyata keçirilir. Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısının ən bariz örnəyi Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondunun yaradılması olub. Belə ki, "YAŞAT" Fondu bu istiqamətdə dövlətin institusional təşəbbüsü olaraq öz fəaliyyətində humanitar missiyanı ehtiva edir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin edilib. Bununla yanaşı Vətən müharibəsi iştirakçılarının qayğılarının diqqət mərkəzində saxlanılması məqsədilə Nazirlər Kabinetinin 2021-ci il 30 yanvar tarixli Qərarına əsasən, Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi işinin təşkili üzrə də xüsusi komissiya yaradılaraq fəaliyyətə başlayıb.

Dövlət tərəfindən atılmış mühüm addımlardan biri şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısı üzrə təşəbbüslərin yerli icra hakimiyyəti orqanlarını da əhatə etməsidir. Sosial siyasətin institutlaşdırılması dövlətin mövcud istiqamətdəki prinsipiallığını nümayiş etdirir. Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 yanvar tarixli Fərmanı ilə yerli icra hakimiyyəti orqanlarının strukturunda Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin nəzərdə tutulması ölkəmizdə sosial siyasətin şaxələnməsi və institutlaşdırılması istiqamətində atılan önəmli addımdır. Bu, dövlətin müvafiq xidmətlərindən faydalanmaq imkanlarını artırır. Belə ki, dövlət xidmətlərinin əlçatanlığı Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinin sosial problemlərinin qısa müddət ərzində həllinə xidmət edir.

# V BÖLMƏ.

# İNAM VƏ ETİMADIN DİNAMİKASI

## 5.1. Prezidentə inam və etimad

Respondentlərin 68,1%-i son 3 ayda Prezidentə inam və etimadının artdığını bildirib. Tədqiq edilən dövrdə Prezidentə inam və etimadın artması sosial-iqtisadi həyatda baş verən proseslər, Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi layihələr və islahatlarla bağlıdır. Rəyi soruşulanların 26,2%-i Prezidentə inam və etimadının dəyişməyərək əvvəlki kimi yüksək olaraq qaldığını bildirib. Bunun əksinə olaraq Prezidentə inam və etimadının dəyişməyərək aşağı qaldığını 2.9%, inam və etimadının azaldığını 2.8% respondent bildirib.

**Son 3 ayda Prezidentə olan inam və etimadınız necə dəyişib?**




- İnam və etimadım artıb
- İnam və etimadım dəyişməyib, yüksək qalıb
- İnam və etimadım dəyişməyib, aşağı qalıb
- İnam və etimadım azalıb

Müqayisə üçün qeyd edək ki, Prezidentə olan inam və etimadının artdığını bəyan edən respondentlərin faiz göstəricisi 2020-ci ilin yanvar-mart və aprel-iyun ayları üzrə müvafiq olaraq 58.1% və 24.6% təşkil etdiyi halda, analoji göstərici ilin son rübündə - dekabr ayında keçirilən sorğuda 85%-ə bərabər olub.

2020-ci ilin mart (38.2%), iyun (71.7%) və dekabr (14.0%) ayları üzrə keçirilən sorğuların nəticələrində inam və etimadının dəyişmədiyini bildirən respondentlərin mütləq əksəriyyəti (orta hesabla 97.0%-i) Prezidentə olan inam və etimadının dəyişməyərək yüksək qaldığını bəyan edib. Müvafiq olaraq, inam və etimadının azaldığını bildirən respondentlər isə 2019-cu ilin axırlarında 1.4%, 2020-ci ilin mart ayı üzrə 0.9%, iyun ayı üzrə 2.6%, dekabr ayı üzrə cəmi 0.1% təşkil edib.

Bundan başqa, cari sorğuda iştirak edənlərin mütləq çoxluğu (88.3%) Prezidentə tam etibar etdiyini, 9.1%-i isə əsasən etibar etdiyini bildirib. I Vitse-prezidentə münasibətdə də respondentlərin etibarlılıq səviyyəsi yüksəkdir. Belə ki, respondentlərin 82.5%-i "tam etibar edirəm", 12.2%-i "əsasən etibar edirəm" cavablarını verib.

**Onu da əlavə edək ki, son 3 ayda Prezidentə inam və etimadının artdığını deyənlər:**

*- kadr islahatlarında ictimai rəyin nəzərə alınması fikri ilə daha çox razılaşıblar ($X^2$ (6)=106.361, $p<0.01$);*

*- ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətində reallaşdırılan tədbirlərlə bağlı daha müsbət mövqedə qərarlaşıblar $X^2$ (9)=184.954, $p<0.01$);*

*- xarici siyasət istiqamətində reallaşdırılan tədbirləri daha müsbət qiymətləndiriblər ($X^2$ (9)=251.587, $p<0.01$);*

*- kadr islahatları istiqamətində reallaşdırılan tədbirlərə daha müsbət yanaşırlar ($X^2$ (9)=199.660, $p<0.01$);*

*- postmüharibə dövrü üçün Qarabağa Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarları (mesajları) daha yüksək dəyərləndiriblər ($X^2$ (6)=91.451, $p<0.01$);*

*- Qarabağa Qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə daha çox razılaşıblar ($X^2$ (3)=25.198, $p<0.01$).*

*- işğaldan azad edilmiş torpaqlarda nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılmasının ermənilərin yaşadığı ərazilərimizdə də Azərbaycanın suverenliyini təmin edəcəyinə daha çox ümid bəsləyirlər ($X^2$ (3)=14.210,$p< 0.01$).*

**Son 3 ayda Prezidentə inam və etimadının artdığını deyənlərin:**

*- II Qarabağ müharibəsindən sonrakı dövrdə Azərbaycanın siyasi-iqtisadi gücünün daha da artacağı ilə bağlı gözləntisi daha yüksəkdir ($X^2$ (3)=29.594, $p< 0.01$).*

*- II Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçıları ilə bağlı dövlət siyasətində həmin ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar gözləntisi daha çoxdur $X^2$ (3)=8.482, $p< 0.05$).*

*Son 3 ayda Prezidentə inam və etimadının artdığını deyənlər ölkə rəhbərinə ($X^2$ (9)=445.471, $p< 0.01$) və I Vitse-prezidentə ($X^2$ (9)=374.180, $p< 0.01$) daha çox etibar edirlər*

Prezidentə etibar edənlər ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətində tədbirləri daha çox müsbət qiymətləndiriblər (r=0.412 (p<0.01)).

## 5.2. Milli Məclis və məhkəmə institutlarına inam və etimad

2021-ci ilin aprel ayında keçirilmiş cari sorğuda respondentlərin 32.2%-i Milli Məclisə tam etibar edib. Müqayisə üçün qeyd edək ki, 2020-ci ilin fevral ayında keçirilən seçkilərdən sonra yeni formalaşan parlamentə mart ayı üzrə tam etibar etdiyini bəyan edən respondentlər 32.3% təşkil etdiyi halda, iyun ayı üzrə müvafiq göstərici 25.7% təşkil edib.

Milli Məclisin fəaliyyətinə etibar etmədiyini bildirən respondentlərin faiz göstəricisi isə belə olub: “əsasən etibar etmirəm” – 10.9%, “heç etibar etmirəm” – 23.3%. Qeyd edək ki, parlamentin fəaliyyətinə heç etibar etmədiyini və əsasən etibar etmədiyini bildirən respondentlərin faiz göstəricisi 2020-ci ilin mart ayı üzrə müvafiq olaraq 12.3% və 8.4% təşkil




etdiyi halda, iyun ayı üzrə analoji göstəricilər 10% və 18.3% olub.

Respondentlərin məhkəmə orqanlarına inam və etimad dinamikasında isə artım müşahidə edilib. Belə ki, rəyi soruşulanların 36%-i məhkəməyə tam etibar etdiyini bildirib. 2020-ci ilin mart ayı üzrə məhkəmə orqanlarına tam etibar etdiyini bəyan edən respondentlər 30.9% təşkil edərkən, iyun ayı üzrə analoji göstərici 27.6% olub.

Cari sorğuda məhkəmə orqanlarının fəaliyyətinə heç etibar etmədiyini bildirən respondentlər 24.3% təşkil edib.




## 5.3. İcra hakimiyyəti orqanlarına inam və etimad

Respondentlərin yuxarı icra orqanı olan Nazirlər Kabinetinə inam və etimadının dinamikasında da artım müşahidə edilib. Belə ki, cari sorğuda iştirak edənlərin 32.8%-i Nazirlər Kabinetinə tam etibar etdiyini bildirib. Aparılan sorğuların müqayisəsi göstərir ki, Nazirlər Kabinetinə tam etibar etdiyini bildirən respondentlər 2020-ci ilin iyun ayı üzrə 27.9% təşkil edib.

Sözügedən orqana əsasən etibar etdiyini bəyan edən respondentlər isə 2021-ci ilin aprel ayında 27.2%, 2020-ci ilin iyun ayı üzrə 36.7% müəyyən olunub.

Nazirlər Kabinetinin etibarlılığını qiymətləndirməkdə çətinlik çəkənlərin nisbəti 2020-ci ilin iyun ayı ərzində 11.6%-ə yüksəldiyi hal-

da, 2021-ci ilin aprel ayında 6.4%-ə düşüb.

Nazirlər Kabineti ilə yanaşı, sorğuda respondentlərin yerli icra hakimiyyəti orqanlarına, Dövlət Statistika Komitəsinə, Mərkəzi Banka, ombudsmana və bələdiyyələrə etibarlılığı da öyrənilib. Respondentlərin 46.4%-i Dövlət Statistika Komitəsinə, 44%-i Mərkəzi Banka, 40%-i ombudsmana, 27.4%-i yerli icra hakimiyyətinə, 23.6%-i bələdiyyələrə etibar etdiyini qeyd edib.

Sorğunun nəticələri bir daha sübut edir ki, respondentlərin yerli icra hakimiyyətinə ("əsasən etibar etmirəm" – 5.0%, "heç etibar etmirəm" – 39.1%), ombudsmana ("əsasən etibar etmirəm" – 4.0%, "heç etibar etmirəm" – 15.3%) və bələdiyyələrə ("əsasən etibar etmirəm" – 14.9%, "heç etibar etmirəm" – 32.2%) etibarlılıq səviyyəsi aşağı olaraq qalır.

Maraqlıdır ki, respondentlərin bir qismi məhkəmə (10.9%), ombudsman təsisatı (18.1%) və Dövlət Statistika Komitəsinin fəaliyyətinə (10.8%) etibar edib-etməməklə bağlı fikir bildirməkdə çətinlik çəkib.

Demək olar ki, adları sadalanan bütün institutlara inam səviyyəsi kişilərdə qadınlara nisbətdə daha aşağıdır. Prezident, I Vitse-prezident, Nazirlər Kabineti, Milli Məclis və Ombudsman Aparatının fəaliyyətini işsizlər digər qruplara nisbətdə daha aşağı, dövlət sektorunda işləyənlər isə daha yüksək dəyərləndirirlər. Maraqlıdır ki, Mərkəzi Bank və məhkəmə sisteminə dair qiymətləndirmədə işsizlərlə yanaşı, özəl sektorda işləyənlər daha mənfi rəy bildirib. Diqqət çəkən məqamlardan biri budur ki, aylıq gəliri 251-500 manat arası dəyişən respondentlərin Mərkəzi Bank, bələdiyyələr, Ombudsman Aparatı və yerli icra hakimiyyəti orqanlarının işindən razılığı 501-1000 manat arası gəliri olanlardan daha aşağıdır.

Prezidentin fəaliyyətini 18-25 yaş qrupunda olanlar digər qruplara nisbətən aşağı dəyərləndirdiyi halda, ən yüksək razılıq dərəcəsi 65 yaş üzərində olanlar arasındadır. Milli Məclis üzrə ən yüksək və aşağı razılıq göstəriciləri müvafiq olaraq 18-25 və 65 yaş qrupları üzrə müşahidə edilib. Oxşar mənzərə Ombudsman Aparatı, məhkəmə orqanları və Mərkəzi Bank üzrə də mövcuddur. Nazirlər Kabinetindən narazı olanlar 56-65 yaş, yerli icra hakimiyyətindən narazı olanlar isə 36-45 və 65 yaş üzərində olanlar arasında daha geniş yayılıb.

İqtisadi rayonlar üzrə nəzər yetirsək, Prezidentin fəaliyyəti Bakı və Abşeronda digər ərazilərə nisbətdə aşağı, Gəncə-Qazaxda isə yuxarı dəyərləndirilib. Diqqət çəkən məqamlardan biri budur ki, əksər institutlara inam Lənkəran iqtisadi rayonu üzrə daha yüksək, Bakı və Abşeronda isə daha aşağıdır. Ən ciddi fərqlərdən biri bələdiyyələr üzrə müşahidə edilib. Belə ki, Bakı və Abşeronda bu institutdan narazılıq əksər yerlərə nisbətdə əhəmiyyətli dərəcədə yüksəkdir. Dağlıq Şirvan və Lənkəranda isə bələdiyyələrdən razılıq ən yüksək səviyyədədir.

Qeyd edək ki, 2020-ci ildə keçirilmiş sorğularda yerli icra hakimiyyəti orqanlarına etibar etdiyini bəyan edən respondentlərin sayında ilin əvvəli (yanvar-mart) ilə müqayisədə iyun ayında 15% civarında azalma müşahidə olunub.




Yerli icra hakimiyyəti orqanlarına inam və etimadın aşağı olması (39.1% heç etibar etmirəm, 5% əsasən etibar etmirəm) bu istiqamətdə islahatlara olan zərurəti göstərir. Qeyd edək ki, Prezidentin "Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" 17 mart 2020-ci il tarixli sərəncamından, "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidenti-

nin xüsusi nümayəndələri haqqında" 19 yanvar 2021-ci il tarixli fərmanından irəli gələn məsələlər yerli icra hakimiyyətləri ilə bağlı mövcud problemlərin aradan qaldırılmasında və yerli idarəçilik strukturlarına ictimai münasibətin müsbət istiqamətdə dəyişdirilməsində alternativ həll variantı kimi dəyərləndirilə bilər.

Burada onu da əlavə edək ki, cari sorğuda respondentlərdən son bir il ərzində qarşılaşdığı problemlərlə bağlı hər hansı quruma müraciət edib-etmədikləri də soruşulub. Rəyi soruşulanların 37,4%-i hər hansı quruma müraciət etmədiyini, 62,6%-i isə müraciət etdiyini bildirib.

Respondentlərin 41,6%-i son bir il ərzində qarşılaşdığı problemlərlə bağlı aidiyyəti nazirlik və agentliyə, 27,5%-i yerli icra hakimiyyətinə, 9,7%-i Prezident Administrasiyasına, 8,9%-i I Vitse-prezidentə, 8,6%-i məhkəməyə, 3,7%-i ərazi üzrə deputata/millət vəkilinə, 3,4%-i Milli Məclisə müraciət etdiyini vurğulayıb. Diqqətçəkən məqam kimi qeyd edək ki, rəyi soruşulanların 10,4%-i bu istiqamətdə bələdiyyəyə müraciət etdiyini qeyd edib.

Digər önəmli məqam bundan ibarətdir ki, sorğuda iştirak edənlərin 55,8%-i müraciətinin nəticəsindən heç razı qalmadığını, 20,1% respondent isə müraciəti əsasında hələ ki konkret bir nəticə olmadığını vurğulayıb. Bununla yanaşı qeyd edək ki, respondenlərin 14,5%-i müraciətinin nəticəsindən tam razı qaldığını, 9,7%-i isə qismən razı qaldığını qeyd edib.

Sorğunun nəticələri göstərir ki, əhalinin müraciətlərinə aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən baxılması hallarından narazılıq çoxdur. Bu da həmin dövlət orqanlarına (qurumlarına) əhalinin az etibar etməsinə gətirib çıxarır.

Qeyd edək ki, son 1 ildə problemləri ilə bağlı aidiyyəti nazirlik, agentlik və s. qurumla-

**Aşağıdakı şəxs və institutlara nə dərəcədə etibar edirsiniz?**




**Son 1 il ərzində probleminizlə bağlı hər hansı quruma müraciət etmisinizmi?**




***Hansı quruma müraciət etmisiniz?***






***Müraciətinizin nəticəsindən nə dərəcədə razı qaldınız?***




ra müraciət edənlər Nazirlər Kabinetinə daha az etibar edirlər ( t(1113)= 5,075 p<0,01).

Son 1 ildə problemi ilə bağlı yerli icra hakimiyyətinə müraciət edənlər yaşadığı ərazidəki icra hakimiyyətinin fəaliyyətinə daha az etibar edirlər ($X^2$ (3)=20.196, p<0.01).

### 5.4. Prezidentin vətəndaşların vəziyyətindən məlumatlılıq səviyyəsinə münasibət

Maraq doğuran məsələlərdən biri də respondentlərin nəzərində Prezidentin vətəndaşların vəziyyətindən nə dərəcədə məlumatlı olması ilə bağlıdır. Respondentlərin 36,1%-nin fikirincə, Prezident vətəndaşların vəziyyətindən tam, 39%-nin qənaətinə görə isə müəyyən qədər məlumatlıdır. Bunun əksinə olaraq 17,7% respondent bu fikirdədir ki, Prezident vətəndaşların vəziyyətindən az məlumatlıdır, yaxud heç bir məlumatı yoxdur (6.6%).

Rəyi soruşulanların dördə bir hissəsi (24,9%) belə düşünür ki, yerlərdə baş verən bütün hadisələr Prezidentə olduğu kimi çatdırılır.

Prezidentə inam və etimadının artdığını deyənlər digər qruplarla müqayisədə daha çox Prezidentə bütün məlumatların olduğu kimi çatdırıldığını bildiriblər ($X^2$ (6)=19.110, p<0.01).

**Sizcə, Prezident vətəndaşların vəziyyətindən nə dərəcədə məlumatlıdır?**




63,6% respondentin fikrincə, Prezidentə yalnız müsbət məlumatlar çatdırılır. Bunun əksinə, 5,5% respondent belə düşünür ki, Prezidentə yalnız mənfi məlumatlar çatdırılır. 6,1% respondent bu suala cavab verməkdə çətinlik çəkib.

Son 1 ildə məmurların qanun pozuntusu ilə rastlaşdığını deyənlər əks mövqedə qərarlaşanlarla müqayisədə Prezidentə yalnız müsbət məlumatların çatdırıldığını daha çox qeyd ediblər ($X^2$ (2)=61.593, p<0.01).

Bundan başqa, sorğuda iştirak edənlərin 34,4%-i son bir ildə məmurların qanun pozuntusu ilə rastlaşmadığını, 65,6%-i isə rastlaşdığını bildirib. Respondentlərin 45,1%-i məmurların qanun pozuntusu ilə bağlı hər hansı quruma/orqana müraciət etmədiyini, yalnız 54,9%-i isə müraciət etdiyini bildirib.

**Sizcə, yerlərdə baş verən hadisələrlə bağlı məlumatlar Prezidentə nə dərəcədə düzgün çatdırılır?**









## 5.5. Vətəndaşları narahat edən əsas problemlər

Cari sorğuda respondentlərin müxtəlif xidmət sahələri üzrə məmnuniyyət səviyyəsi dəyərləndirilib. Belə ki, sorğuda iştirak edənlərin 71,6%-i işıq və elektrik təchizatından, 65.8%-i qaz təchizatından, 59,2%-i telefon şəbəkəsi təchizatından, 53,2%-i içməli su təchizatından tam razı qaldıqlarını ifadə edib. Bunun əksinə olaraq respondentlərin 25,4%-i yaşadıqları ərazidəki yolların vəziyyətindən, 21,8%-i bələdiyyənin fəaliyyətindən, 20,4%-i içməli su və 19,2%-i internet təchizatından, 18,3%-i yaşadığı ərazinin icra hakimiyyətinin fəaliyyətindən, 16,1%-i yaşadığı ərazidəki ictimai nəqliyyatın vəziyyətindən, 12,3%-i suvarma ilə bağlı su təchizatından, 7,7%-i mənzil-kommunal istismar sahəsinin fəaliyyətindən heç razı qalmadıqlarını qeyd ediblər.

Respondentlərin 70,1%-i son 3 ayda istehlak məhsullarının qiymətinin bahalaşmasından şikayətlərin artmasını, 55,2%-i ətrafında işsiz (yəni pandemiya dövründə iş yeri potensial risk altına düşən və yaxud işi olub, əlavə iş axtaran) insanların sayının artmasını, 51,5%-i işğaldan azad edilmiş torpaqlara qayıdış əhval-ruhiyyəsinin olduğunu, 45,4%-i dünyanın pandemiyadan öncəki vəziyyətinə tezliklə qayıtması ilə bağlı gözləntilərin artmasını, 44,7%-i yoxsullaşmanı, 43,5%-i milli birliyin güclənməsini, 43,1%-i dövlətə inamın artmasını müşahidə edib. Bununla yanaşı, rəyi soruşulanların 37,%-i insanların rifahının yaxşılaşacağına ümidin artmasını, 29.6%-i ətrafında vaksinasiyaya inamsızlığın hələ də qalmasını, 24,9%-i yaxın ətrafında COVID-19-a yoluxma hallarının artmasını müşahidə edib.

Yaxın ətrafında dövlətə mənfi münasibətin artdığını deyənlər əks mövqedə qərarlaşanlarla müqayisədə Prezidentə yalnız müsbət məlumatların çatdırıldığını daha az qeyd ediblər ($X^2$ (2)=13.481, $p<0.01$).

Son 1 ildə məmurların qanun pozuntusu ilə bağlı hər hansı quruma/orqana müraciət etməyənlər əks mövqeni bölüşənlərlə müqayisədə son 3 ayda yaxın ətrafında dövlətə inamının artdığını daha çox bildiriblər ($X^2$ (1)=6.381, $p<0.05$).

Sorğuda iştirak edənlər ölkədə onları ən çox narahat edən problemləri belə sıralayıblar: işsizlik (53,2%), təhsilin vəziyyəti

**Son 3 ay ərzində aşağıdakılardan hansıları yaxın ətrafınızda müşahidə etmisiniz?**




(43,3%), insanların maddi durumu (25,6%), Xankəndi, Xocalı və Xocavəndin taleyinin müəyyən olunmaması (20,2%), pandemiyaya görə iş yerlərinin müvəqqəti bağlanması (16,8%), məmur özbaşınalığı (16,2%), Rusiya sülhməramlı qüvvələrinin Qarabağda mövcudluğu (13,4%), səhiyyə sistemi ilə bağlı problemlər (10,8%), sosial problemlərin həll olunmaması (10,4%), korrupsiya (10.2%), COVID-19 pandemiyası ilə bağlı karantin rejiminin tətbiqi (9,2%), əhalinin şikayətlərinə, müraciətlərinə baxılması vəziyyəti (6.5%). Diqqətçəkən məqam odur ki, respondentlərin 7,4%-i onları narahat edən problemin olmadığını qeyd edib. Qeyd edək ki, respondentlərə cavab variantlarından yalnız üç problemi seçmək imkanı verilib.

Əhalinin müraciətlərinə baxılmamasından narahat olanlar olmayanlarla müqayisədə məmurların qanun pozuntusu ilə bağlı hər hansı quruma daha çox müraciət ediblər ($X^2$ (1)=11.108, $p<0.01$).

Məmur özbaşınalığından narahat olanlar olmayanlarla müqayisədə Prezidentə bütün məlumatların olduğu kimi çatdırıldığı qənaətini daha az bölüşüblər ($X^2$ (2)=16.392, $p<0.01$).

**Azərbaycanda sizi hansı problem daha çox narahat edir?**






Həmçinin məmur özbaşınalığından narahat olanlar olmayanlarla müqayisədə yaxın ətrafında dövlətə mənfi münasibətin artdığını daha çox qeyd ediblər ($X^2$ (1)=40.170, p<0.01).

Rəyi soruşulanlar yaşadığı ərazidə işsizliyi (55,4%), psixoloji gərginliyin (39%) artmasını, müvəqqəti işsizlik/iş yerlərinin müvəqqəti bağlanmasını (34%) müşahidə etdiklərini bildiriblər. Bununla yanaşı, sorğuda iştirak edənlər insanlarda aqressiyanın artmasını (33%), küçələrin abad olmamasını (28%), narkotikdən istifadənin geniş yayılmasını (26,6%), yol infrastrukturunun pis olmasını (25,9%), kanalizasiya xətlərinin olmamasını (24,9%), işıqlandırmanın zəif olmasını, yaxud heç olmamasını (24,9%), ictimai nəqliyyat problemini (24,2%), oğurluq əməllərinin geniş yayılmasını (19,3%), sakinlərin bir-biri ilə əlaqəsinin/münasibətlərinin zəifliyini (18,2%), nizam-intizamsızlığı (səs-küy, küçədə asayişə əməl etməyən adamlar) (9,1%) yaşadığı ərazidə müşahidə etdiklərini qeyd ediblər.

Respondentlərə ünvanlanan daha öncəki sualda (ölkədə onları ən çox narahat edən üç problem) olduğu kimi bu sualda da (yaşadığı ərazidə müşahidə edilən problem) işsizlik məsələsi ilk pillədə qərarlaşıb. Bu, dövlət üçün ciddi siqnal olmaqla yanaşı, sosial narazılığı artıran əsas meyar kimi qiymətləndirilir. İşsizliyin törətdiyi digər fəsadlar cinayətkarlığın artmasına, radikal dini cərəyanlara meyillənməyə və xarici xüsusi xidmət orqanlarının təsirinə düşməyə səbəb ola bilər. Pandemiyanın törətdiyi digər sosial-iqtisadi problemlərlə yanaşı, iş yerlərinin bağlanması və ixtisarların artması səbəbindən də işsizliyin sürətlə artması müşahidə olunur. İşsizliyin ara-

**Hazırda yaşadığınız ərazidə aşağıdakı problemlərdən hansıları müşahidə edirsiniz?**




dan qaldırılması üçün əmək bazarına uyğun olaraq peşə təhsilinin və özünüməşğulluq proqramlarının əhali qrupları arasında geniş təşviq olunması zəruridir.

## 5.6. Vətəndaşların Prezidentdən əsas gözləntiləri

Vətən müharibəsindən sonra həm qələbə ruhunu qoruyub saxlamaq, həm də vətəndaşların gözləntilərini tam formada doğrultmaq qarşıda duran əsas vəzifələrdən biridir. Aparılmış tədqiqatın nəticələri göstərir ki, vətəndaşların Prezidentdən əsas gözləntisi əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasıdır (75.3%). Yeni iş yerlərinin açılması əsas gözlənti kimi ikinci sırada yer alır (74,4%). Gələcək dövrdə sosial siyasətin daha da gücləndirilməsinin əsas prioritet kimi dövlətin qarşısında duracağı gözlənilir. Çünki qalib ölkənin vətəndaşları daha yaxşı sosial rifaha sahib olmaqla yanaşı, yeni iş yerlərinin yaradılmasını, şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin yüksək səviyyədə təmin edilməsini (71,7%), qiymətlərin bahalaşmasının (71,6%) və məmur özbaşınalığının qarşısının alınmasını (71,1%) istəyirlər. Xankəndi, Xocalı və Xocavəndin tamamilə Azərbaycanın nəzarətinə keçməsinin təmin edilməsi (67,2%), təhsilə və elmə diqqətin artırılması (64,1%), vətəndaşa daha da yaxın olmaq (62,2%), səhiyyə xidmətinin keyfiyyətinin artırılması (60,9%) da respondentlərin əsas gözləntiləri sırasındadır. Rəyi soruşulanların digər sahələrdə gözləntiləri məşğulluğun təmin olunması (55,5%), məmurların gəlirlərinə nəzarət edilməsi (54,4%), ordu quruculuğunun daha da təkmilləşdirilməsi (52,6%), regionların daha çox inkişaf etməsinin təmin olunması (52,3%), məhkəmələrin şəffaf fəaliyyətinin (49,5%) və bir sıra ölkələrə vizasız gediş-gəlişin təmin edilməsi (45%), xarici əlaqələrin daha da inkişaf etdirilməsi (44%), Qarabağda separatçılara qarşı antiterror əməliyyatlarının keçirilməsi (40,7%), qeyri-neft sektorunun inkişaf etdirilməsi (38,9%), regionlarda yerli idarəçiliyin təkmilləşdirilməsi (38,4%), vaksinasiya prosesinin daha da sürətləndirilməsidir (38,6%). Göründüyü kimi, postmüharibə dövründə vətəndaşların Prezidentdən əsas gözləntiləri kompleks məsələləri əhatə edir və onların tədricən həll edilməsi gözlənilir.

Bakı və Aranda məskunlaşanlar, 46-65 yaş aralığından olanlar və dövlət sektorunda işləyənlər, tələbələr və təqaüdçülərdə sosial rifahın yaxşılaşdırılması istəyi daha çoxdur. Yeni iş yerlərinin açılması gözləntisi Lənkəran və Quba-Xaçmaz regionlarında yaşayanlar və 46-65 yaş aralığında olanlar arasında daha geniş yayılıb. Lənkəran, Bakı və Abşeronda məmur özbaşınalığının qarşısının alınmasını istəyənlərin sayı daha çoxdur. Gəncə-Qazax, Lənkəran, Aran və Bakıda regionların daha çox inkişaf etməsinin təmin olunmasına dair istək daha çoxdur.



# VI BÖLMƏ.

# SİYASİ PROSESLƏRDƏ İŞTİRAKÇILIQ

## 6.1. Siyasi partiyalar sistemində baş verən dəyişikliklər

Partiyaların çoxluğu şəraitində onların pərakəndəliyi siyasi sistemin səmərəli fəaliyyətinə mənfi təsir edən amillərdəndir. Bu səbəbdəndir ki, Prezident İlham Əliyev daima ölkədə siyasi qüvvələr arasında dialoqun təşkili təşəbbüsü ilə çıxış edib və ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi, güclü partiyalar sisteminin yaradılması üçün bunun mühüm əhəmiyyəti olduğunu qeyd edib. Martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayında videoformatda çıxışında da Prezident bildirib ki, biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik: **“...Bu prosesə müharibədən əvvəl start verildi və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olundu. Deməli olar ki, bütün partiyalar, - əgər biz özünü siyasi qurum adlandıran antimilli şuranı istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərmişlər, bizim təşəbbüsümüzü alqışlamışlar və artıq bu dialoq baş tutub. ...Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var. Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna fikir verməyə çağırıram ki, bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur.”** [10]

Bu gün Azərbaycanda siyasi partiyaların bir-birindən əsaslı fərqlənən müxtəlif ideya və oriyentasiyalara malik olmasını söyləmək düzgün olmazdı. Partiyaların ideoloji siyasi mövqeyini daha çox onların legitim siyasi qüvvəyə - dövlətə münasibəti aspektində qruplaşdıraraq müəyyən etmək olar. Siyasi partiyaların real fəaliyyət, təşəbbüskarlıq və intellektual potensial hesabına deyil, hakimiyyət uğrunda mübarizə xatirinə status-kvonu on illərlə saxlamağa can atması perspektivdən məhrumdur. Azərbaycanda hətta ümummilli məsələlərdə siyasi dialoqa meyil etməyən antilli siyasi qüvvələr bu müddət ərzində əksinə “parçalanma, dialoqa qapalı olmaq və kəmiyyətcə çoxalmaq” meyillərindən başqa əlamət nümayiş etdirə, özlərini “yenilikçi” adlandıraraq radikal stereotiplərdən azad ola bilməmişlər. Sosial dayaqdan məhrum olduqca təsadüfi insanların cəlbinə səy göstərilməsi seçkilər zamanı sivil mübarizə, siyasi əxlaq və mənəvi dəyər ölçülərinə sığmayan məlum hadisələrə səbəb olmuşdur.

Ümumiyyətlə, son iki ildə ölkədəki siyasi qüvvələr arasında aparılan danışıqlarda əsas məqsəd sadəcə çoxpartiyalı siyasi sistem görüntüsü yaratmaq deyil, ölkədə dinamik siyasi mübarizə mühiti, rəqabətədavamlı partiyalar yaratmaq olduğu üçün bu, çox düşündürücüdür. Söhbət əslində ideoloji eklektizm və bənzər ideoloji şüarların yığınından ibarət olan partiyalar mühitindən gedir.

Son iki ildə Prezidentin təşəbbüsü ilə siyasi partiyalar sistemində baş verən dəyişikliklər əsasən ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsinə xidmət edir. Bu amili nəzərə alıb respondentlərdən bu dəyişikliklərin onlar üçün nəyi ifadə etdiyi soruşulub. Respondentlərin 28,4%-nin qənaətinə görə, son 2 ildə siyasi partiyalar sistemində baş verən dəyişikliklər heç bir şey ifadə etmir. Rəyi soruşulanların 27,3%-i isə əksinə bu qənaəti bölüşür ki, son 2 ildə siyasi partiyalar sistemində baş verən dəyişikliklər siyasi həmrəyliyi, inteqrasiya və milli birliyi əks etdirir. 22.2% respondent bu dəyişiklikləri yeni siyasi sistemin formalaşması, 20,6%-i Azərbaycanda partiyalar sisteminə yeni baxış kimi qiymətləndirib. Respondentlərin 20,5%-i düşünür ki, bu dəyişikliklər milli məsələlərdə partiyaların həmrəylik nümayiş etdirmə bacarığını ifadə edir. Sorğuda iştirak edənlərin 16%-i bu dəyişiklikləri ölkədəki siyasi dialoq mühitinin formalaşması ilə əlaqələndirirlər, 10,5%-i digər siyasi cəbhələrdə parçalanma və fikir müxtəlifliyi kimi, 9,9%-i siyasi proseslərə təsirə malik olan güclü partiyalar sisteminin yaradılması, 6,5%-i digər partiyaların real siyasi müstəviyə transfer

[10] *Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilib. /05.03.2021/ - https://president.az/articles/50798*

imkanlarının zəifliyi, 6,4%-i sözügedən partiyaların maddi-texniki və resurs imkanlarının zəifliyi kimi qeyd ediblər.

Qeyd edək ki, son 2 ildə siyasi partiyalar sistemində baş verən dəyişikliklərin özündə yeni siyasi sistemin formalaşmasını əks etdirdiyini deyənlər siyasi sistemdə dərinləşdirilmiş islahatların aparılmasının daha çox tərəfdarıdırlar ($X^2$ (1)=14.034, p<0.01).

**Son 2 ildə siyasi partiyalar sistemində baş verən dəyişikliklər özündə nələri əks etdirir?**




Respondentlərdən ümumiyyətlə siyasi xəbərlərin onlar üçün nə dərəcədə maraqlı olub-olmadığı da soruşulub. Rəyi soruşulanların 43,7%-i siyasi xəbərlərin onlar üçün çox maraqlı olduğunu, 33,3%-i müəyyən qədər maraqlı olduğunu bildirib. Sorğuda iştirak edənlərin 9,4%-i siyasi xəbərlərin onlar üçün az maraqlı olduğunu, 13,5%-i isə heç maraqlı olmadığını vurğulayıb.

**Siyasi xəbərlər sizin üçün nə dərəcədə maraqlıdır?**




## 6.2. Seçkilərdə iştirakçılıq səviyyəsi

Rəyi soruşulanların 75,2%-i 2018-ci ildə keçirilən prezident seçkilərində, 36,2%-i 2019-cu ildə keçirilən bələdiyyə seçkilərində, 42,7%-i 2020-ci ildə keçirilən Milli Məclisə seçkilərdə iştirak etdiyini bildirib. Qeyd edək ki, respondentlərin 18,7%-i heç bir seçkidə iştirak etmədiyini vurğulayıb.

Respondentlərin hər üç seçkidə iştirakçılığının müqayisəsi göstərir ki, əhalinin prezident seçkilərinə marağı daha çoxdur. Bu da qanunverici və icraedici orqanlara nisbətdə Prezidentə əhalinin böyük inam və etibar etməsindən irəli gəlir.

2019-cu ilin bələdiyyə seçkilərində iştirak edənlər yaşadığı ərazidəki bələdiyyələrin fəaliyyətindən daha çox razılıq ifadə ediblər (t(1059)=9.047p<0.01).

2018-ci ildə keçirilən prezident seçkilərində iştirak edənlər siyasi xəbərlərin onlar üçün daha çox maraqlı olduğunu bildiriblər (t(1187)=6.702p<0.01).

Seçkilərdə iştirakçılıq demoqrafik amillər üzrə fərqlənir. Belə ki, ilk olaraq, 2020-ci ildə keçirilən Milli Məclis seçkilərinə nəzər yetirək. Yaş artdıqca bu seçkidə iştirakçılıq da yüksəlir. Məsələn, iştirak edənlər arasında 46-65 yaşda olanlar üçün iştirakçılıq göstərcisi 26-28% arası dəyişdiyi halda, 26-35 yaş qrupu üçün analoji göstərici 2 dəfə azdır. Ali və orta təhsillilər orta-ixtisas təhsillilərə, dövlət sektorunda işləyənlər isə digər məşğuliyyət qruplarından olanlara nisbətdə seçkilərdə daha fəal

olub. Aylıq gəliri 0-250 manat olanların 41%-i, 251-1000 manat gəlir sahiblərinin isə 60-62%-i Milli Məclis seçkilərində səsverməda iştirak edib. İştirak edənlər arasında Aran, Bakı və Lənkərandakı respondentlər daha fəal olub.

2019-cu ildə keçirilən bələdiyyə seçkilərində fəallıq dərəcəsi yaş artdıqca yüksəlir. Ən aşağı fəallığın müşahidə edildiyi yaş qrupunda (18-25) cəmi 19% respondent seçkidə iştirak edib. Lənkəran, Şəki-Zaqatala və Quba-Xaçmazdakı respondentlər, eləcə də orta peşə-ixtisas və ali təhsillilər seçkilərdə daha fəal olub. Məşğuliyyət statusu cəhətdən dövlət sektorunda işləyənlərin seçkidə iştirakçılıq ehtimalı daha yüksəkdir. Aylıq gəliri 251-1000 manatarası olan ev təsərrüfatlarının seçkilərdəki aktivliyi daha yüksək olub.

2018-ci ildə keçirilən prezident seçkilərində fəallıq dərəcəsi də yaş artdıqca yüksəlir. Orta peşə-ixtisas və ali təhsilli olanların seçkidə iştirakçılıq ehtimalı daha yüksəkdir. Əksər iqtisadi rayonlar üzrə fəallıq ciddi fərqlənməsə də, Lənkəranda fəallıq daha yüksək, Bakı və Abşeronda isə daha aşağı olub. Dövlət sektorunda işləyənlər və fərdi əmək fəaliyyəti ilə məşğul olanlar ən fəal demoqrafik qrup kimi qarşıya çıxır. Digər seçkilərdə olduğu kimi, burada da aylıq gəliri 251-1000 manat arası olan respondentlərin seçkilərdəki aktivliyi daha yüksək olub.

Sorğuda iştirak edənlərin 27,4%-i seçki günü yaşadığı ərazidə olmadığı üçün, 26,9%-i seçkilərin şəffaf keçirilmədiyini və 25,6%-i isə səsinin əhəmiyyətli olmadığını düşündüyü üçün seçkidə iştirak etmədiyini qeyd edib. Bununla yanaşı, respondentlərin 11,7%-i seçki günü vacib işləri olduğu üçün, 9%-i namizədlərin heç birinə etibar etmədiyi üçün, 8,5%-i siyasətlə maraqlanmadığı üçün, 2,7%-i namizədlərin seçki platforması barədə kifayət qədər məlumatlı olmadığı üçün seçkilərdə iştirak etmədiyini bildirib.



# VII BÖLMƏ.
# BEYNƏLXALQ TƏŞKİLATLARIN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

## 7.1. Beynəlxalq təşkilatların fəaliyyətinə münasibət

Çox çətin geosiyasi regionda yerləşən Azərbaycanın dünyada və regionda gedən siyasi proseslərdə sadəcə izləyici qalmayaraq, milli maraqlar kontekstində balanslaşdırılmış regional siyasət yürütməsi vaxt keçdikcə verilmiş qərarların doğru olduğunu sübuta yetirdi. Cənubi Qafqaz ölkələri arasında Ermənistanın KTMT-nin üzvü olması, Gürcüstanın isə NATO-ya meyillənməsi fonunda Azərbaycan Qoşulmama Hərəkatının üzvü (sonra sədri) oldu və bu addım Vətən müharibəsində rəsmi Bakının strateji addımlarının praqmatikliyi ilə xarakterizə olundu.

İkinci Qarabağ müharibəsinədək Azərbaycan beynəlxalq təşkilatlarla sıx əlaqələr qurmaqla, Prezidentin təbirincə desək, Vətən müharibəsi üçün hüquqi bazanı daha da möhkəmləndirdi. Azərbaycanın həyat keçirdiyi uğurlu enerji, nəqliyyat siyasəti nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxardı, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı.

Həm müharibə, həm də postmüharibə dövründə beynəlxalq təşkilatların sərgilədiyi mövqe Azərbaycan cəmiyyəti tərəfindən maraqla izlənilirdi. Bu amilləri nəzərə alıb respondentlərə beynəlxalq təşkilatların fəaliyyəti ilə bağlı bir neçə sual ünvanlanıb. Sorğunun nəticələri göstərir ki, respondentlərin yarıdan çoxu (54,2%) heç bir beynəlxalq təşkilatın fəaliyyətini izləmir. Bu göstərici onu sübut edir ki, Azərbaycanın milli maraqları ilə bağlı məsələlərdə bəzi beynəlxalq təşkilatların sərgilədiyi ikili standartlar və susqunluq əhali arasında onlara etibar və inamına da təsir edir. Buna baxmayaraq, respondentlərin 19,2%-i Ümumdünya Səhiyyə Təşkilatının, 15,1%-i Beynəlxalq Qırmızı Xaç Komitəsinin, 14,9%-i BMT-nin, 13,3%-i UNESCO-nun, 12,1%-i Qoşulmama Hərəkatının, 10,7%-i ATƏT-in, 10,6%-i Avropa İttifaqının, 9,7%-i NATO-nun, 9,6%-i Avropa Şurasının, 7,2%-i Dünya Bankının, 7%-i ICESCO-nun, 4,9%-i Avropa Komissiyasının fəaliyyətini izlədiyini bildirib.

**Hansı beynəlxalq təşkilatların fəaliyyətini izləyirsiniz?**




Respondentlərin 47,8%-i beynəlxalq təşkilatlardan Qoşulmama Hərəkatının, 41,9%-i ICESCO-nun, 34,8%-i UNESCO-nun, 29,7%-i Beynəlxalq Qırmızı Xaç Komitəsinin, 28,4%-i Dünya Bankının, 21,6%-i Ümumdünya Səhiyyə Təşkilatının, 20,2%-i NATO-nun, 18,4%-i BMT-nin, 18%-i Avropa Şurasının, 16,3%-i Av-

ropa İttifaqının fəaliyyətini çox yaxşı qiymətləndirib. Rəyi soruşulanların 64,2%-i Ümumdünya Səhiyyə Təşkilatının, 61,4%-i Dünya Bankının, 55,9%-i BMT-nin, 53,9%-i Beynəlxalq Qırmızı Xaç Komitəsinin, 53,4%-i UNESCO-nun, 51,3%-i NATO-nun, 50%-i ICESCO-nun, 49,6%-i Avropa İttifaqının, 47,5%-i Avropa Komissiyasının, 45,3%-i Avropa Şurasının, 42,4%-i Qoşulmama Hərəkatının fəaliyyətinə əsasən yaxşı qiymət verib.

Avropa İttifaqına etibar edənlər bu təşkilatın fəaliyyətini daha müsbət qiymətləndiriblər

**Həmin təşkilatların fəaliyyətini necə qiymətləndirirsiniz?**




(t(123)=4.298p<0.01).

2021-ci ilin 1 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciəti zamanı Qoşulmama Hərəkatında Azərbaycanın yerinə və roluna toxunmuşdur: **“Biz Qoşulmama Hərəkatına üzv olduq. Yadımdadır, o vaxt bəziləri bunu səhv addım kimi qiymətləndirirdi. Ancaq mən bilirəm ki, bu, düzgün addım idi. Üzv olan kimi, dərhal 120 ölkənin dəstəyi ilə münaqişəyə dair qətnamə qəbul etdirdik - bizim maraqlarımıza xidmət edən qətnaməni. Bu gün Qoşulmama Hərəkatının sədri kimi öz sözümüzü dünya miqyasında deyirik. Onu da bir daha demək istəyirəm ki, müharibə zamanı BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı bizə sərf etməyən qərəzli anti-Azərbaycan təşəbbüslərinin qarşısının alınmasında Qoşulmama Hərəkatına üzv ölkələr öz sözünü dedi. Bu təşəbbüs baş tutmadı”.**[11] Bunun nəticəsidir ki, respondentlər Qoşulmama Hərəkatının fəaliyyətini çox yaxşı qiymətləndiriblər.

Maraqlıdır ki, sorğuda iştirak edənlərin 26,9%-i ATƏT-in fəaliyyətini çox pis qiymətləndirib. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev keçən ilin dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərkən bu qurumun münaqişənin həlli ilə bağlı 28 illik fəaliyyətini kəskin tənqid etmişdi: “Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir. Beləliklə, Azərbaycan bu məsələni özü həll etmişdir. Biz Ermənistanı döyüş meydanında məğlub edərək, işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyası hesab etdiyimiz Bəyanatı imzalamağa məcbur etdik.” [12]

*[11] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti. /01.01.2021/ - https://president.az/articles/49798*
*[12] İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edib. /12 dekabr 2020/ - https://president.az/articles/48908*

Qeyd etmək lazımdır ki, sorğuda iştirak edənlərin 26,1%-i heç bir beynəlxalq təşkilata etibar etmədiyini bildirib. Respondentlərin 23,4%-i Beynəlxalq Qırmızı Xaç Komitəsinə, 19,7%-i Ümumdünya Səhiyyə Təşkilatına, 19,6%-i Qoşulmama Hərəkatına, 17,6%-i UNESCO-ya, 9,9%-i ICESCO-ya, 9,1%-i Dünya Bankına, 9%-i Avropa İttifaqına, 9%-i NATO-ya, 8,8%-i




Avropa Şurasına, 6%-i Avropa Komissiyasına etibar etdiyini qeyd edib.

Martın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısında Prezident İlham Əliyev videoformatda çıxışı zamanı bildirib ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri 27 il kağız üzərində qalmışdı. Azərbaycan özü həmin qətnamələrin icrasını təmin edərək ərazi bütövlüyünü bərpa etdi. İşğalçılar qədim Azərbaycan torpağı olan Qarabağdan qovuldu. 44 gün ərzində Ermənistan ordusu tam darmadağın edildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi. [13]

Keçirilmiş sorğuda respondentlər arasında beynəlxalq təşkilatlar arasında ən az etibar ATƏT-ə bildirib. Rəyi soruşulanların cəmi 6,4%-i ATƏT-ə etibar edir. Martın 14-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edən Prezidenti İlham Əliyev işğaldan azad olunan torpaqlar ilə bağlı gələcək planlar haqqında məlumat vermişdir: “Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir. Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu, bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik”. [14]

[13] *İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının onlayn Zirvə toplantısında çıxış edib. /04.03.2021/ - https://president.az/articles/50795*
[14] *İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. /14.03.2021/ - https://president.az/articles/50883*

# NƏTİCƏ

❑ 44 günlük Vətən müharibəsinin doğurduğu reallıqlar bir daha göstərdi ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə diplomatiya təcrübəsində yeni metodlardan geniş istifadə etməklə qələbəmizi şərtləndirən və sonrakı dövrdə möhkəmləndirən bir sıra uğurlara imza atılmışdır. Bu siyasətin təməli sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı faydalı əməkdaşlıq kimi əsas prinsiplərdən, Azərbaycan xalqının milli maraqlarına uyğun olan ardıcıl və açıq siyasət yürüdülməsindən ibarətdir. Müsbət haldır ki, əhali Prezidentin müharibədən sonrakı dövrdə də bu mövqeyini yüksək qiymətləndirir və təqdir edir.

❑ Prezidentin xarici siyasət, ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətindəki fəaliyyəti əhalinin mütləq əksəriyyəti tərəfindən çox yüksək qiymətləndirilir. Bu da İlham Əliyevin prezidentliyi dövründə xarici siyasət, ordu quruculuğu və ordunun təkmilləşdirilməsi sahəsində apardığı praqmatik siyasətin və 44 günlük Vətən müharibəsinin nəticələri fonunda başadüşüləndir.

❑ Respondentlərin yarısı bundan sonra da hərbi sahədə genişmiqyaslı islahatların həyata keçirilməsinin tərəfdarı kimi çıxış edib. Vətən müharibəsinin nəticələrinin düzgün təhlil olunması, müxtəlif qoşun növlərində hərbi qulluqçuların peşəkarlığının artırılması istiqamətində təlimlərin keçirilməsi və bu sahədə müvafiq kadr islahatlarının aparılması arzu olunur. Son aylar Azərbaycan-Ermənistan dövlət sərhədində ermənilərin törətdikləri təxribatlar bunu bir daha sübut edir.

❑ Koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə Azərbaycanda həyata keçirilən tədbirlər bir daha sübut etdi ki, hər bir azərbaycanlının sağlamlığı və rifahı dövlətin diqqət mərkəzində saxladığı prioritet istiqamətlərdir. Prezident İlham Əliyevin göstərişləri ilə operativ olaraq həyata keçirilən qabaqlayıcı tədbirlər, ölkə əhalisinin sağlamlığının qorunması məqsədilə görülən çoxşaxəli işlər bir daha təsdiq etdi ki, dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlət başçısı Azərbaycanın digər məsuliyyətli ölkələr kimi pandemiya dövründə ilk növbədə vətəndaşların sağlamlığını nəzərə aldığını bildirmişdir. Prezidentin vətəndaşların sağlamlığını daim diqqətdə saxlaması əhali tərəfindən yüksək qiymətləndirilir. Belə ki, rəyi öyrənilənlərin 83.4%-i əhalinin sağlamlığının qorunması istiqamətində Prezidentin gördüyü işləri müxtəlif dərəcələrdə səmərəli qiymətləndirib.

❑ Azərbaycan dövlətinin iqtisadi sferada həyata keçirdiyi siyasətin daim özünü qabarıq şəkildə büruzə verən ən önəmli cəhətlərindən biri məhz onun sosialyönümlü xarakter daşımasıdır. Bunun nəticəsidir ki, Prezidentin əhalinin sosial müdafiəsinin təminatı istiqamətindəki fəaliyyətini 81.9% respondent müxtəlif dərəcələrdə səmərəli hesab edir.

❑ 2019-cu ildən həyata keçirilən kadr və struktur islahatlarının 2020-ci ildə və 2021-ci ilin ilk rübündə daha da genişmiqyaslı xarakter alması mühüm əhəmiyyət kəsb edir. Respondentlərin fikrincə, elm, təhsil, sosial müdafiə və səhiyyə sahələrində genişmiqyaslı islahatların aparılmasına daha böyük zərurət var.

❑ Sorğunun nəticələri göstərir ki, respondentlərin xüsusilə də Vətən müharibəsi qazilərinə əlillik dərəcələrinin düzgün müəyyənləşdirilməsi, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak edən şəxslərin məşğulluğunun təmin edilməsi ilə bağlı gözləntiləri daha çoxdur.

❑ Respondentlər kadr islahatları ilə bağlı həyata keçirilən islahatları yüksək səviyyədə təqdir edirlər. Sorğuda iştirak edənlər Şuşanın mədəniyyət paytaxtı elan edilməsi fonunda yeni məmur davranışı və idarəetmə mədəniyyətinin tətbiq edilməsindən, idarəetməyə daha peşəkar kadrlar cəlb etməklə yeni məmur nəslinin yaradılmasından tam razıdırlar.

❑ Rəyi soruşulanlar Qarabağda Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliklərinin yaradılmasının yerli idarəetməyə stimul verəcəyini düşünür. Sorğuda iştirak edənlər idarəetmədə ictimai nüfuzu aşağı olan kadrların hələ də qalması, həmçinin yeni məmur-vətəndaş münasibətləri modelinin formalaşması, vəzifəsindən sui-istifadə edənlərə qarşı tədbirlərin görülməsi, kadr siyasətində ictimai rəyin nəzərə alınması fikirləri ilə tam razı olduqlarını bildiriblər.

❑ Rəyi soruşulanların yarısı belə düşünür ki, Prezident İlham Əliyevin Türk Şurasının 31 mart tarixli Zirvə görüşündə Vətən müharibəsindəki qələbəyə həsr olunan çıxışında

Zəngəzur dəhlizinin açılmasının əhəmiyyətini vurğulaması türkdilli dövlətlər arasında birliyin gücləndirilməsinə xidmət edəcək.

❑ Respondentlər yanvarın 11-də Moskvada üç ölkə rəhbərinin görüşü və əldə edilmiş razılaşmaları 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini qeyd ediblər. Sorğuda iştirak edənlər Moskva görüşündə Ermənistanın heç bir şərtinin qəbul edilməməsini Azərbaycanın postmüharibə dövründəki diplomatik uğuru kimi qiymətləndirir və Ermənistanın əksinə olaraq rəsmi Bakının Moskva görüşündə qarşısına qoyduğu əsas məqsədlərə çatmağı bacardığını qeyd ediblər.

❑ Respondentlər nəqliyyat kommunikasiyalarının – Zəngəzur dəhlizinin açılmasının regionun təhlükəsizliyinə və sabitliyinə töhfə verəcəyini, bununla Rusiya və Türkiyə vasitəsilə regionun iqtisadi, nəqliyyat və ticarət əlaqələrinin qurulacağını, bunun qələbəmizi daha da möhkəmləndirəcəyini, qələbəmizin regiona açılımlar və iqtisadi üstünlüklər qazandıracağını bildiriblər.

❑ Rəyi soruşulanlar belə düşünür ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev fevralın 26-da - XX əsrin ən dəhşətli soyqırımı olan Xocalı faciəsinin 29-cu ildönümü günündə yerli və xarici media nümayəndələri üçün keçirdiyi, 4 saatdan çox davam edən mətbuat konfransında Azərbaycan həqiqətləri, II Qarabağ müharibəsinin reallıqları, postmüharibə dövrünün prioritetləri ilə yanaşı, işğalçı Ermənistana mesajlar ünvanlamışdır. Respondentlərin qənaətinə görə, Prezident ölkəmizin mövqeyini aydın şəkildə ifadə edərək, Ermənistanın illərdir işğalçılıq siyasəti ucbatından rəzil duruma düşməsindən geniş bəhs edərək özünə güvənən, fikirlərinin dəqiqliyində əmin olan, qəti mövqe ortaya qoyan qalib lider kimi danışdı. Dövlətimizin başçısı bir daha aydın şəkildə izah etdi ki, Azərbaycanın mövqeyi beynəlxalq qanunvericiliyin norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və məsələyə ədalətli yanaşmaya əsaslanır. Ölkə Prezidenti bir daha beynəlxalq auditoriyanın diqqətinə Azərbaycanın və Ermənistanın apardığı müharibənin fərqlərini çatdırdı. Azərbaycan üçün bu, azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsi olduğu faktlarla bəyan edildi.

❑ Prezidentin 4 dildə 30-dan çox media qurumunun 50-dən çox sualını cavablandıraraq keçirdiyi mətbuat konfransında verdiyi və dünya mediasında böyük maraqla qarşılanan mesajların informasiya cəbhəsində bundan sonrakı qələbələrdən xəbər verməsi fikri ilə respondentlərin əksəriyyəti (90,8%-i tam, 7,9%-i isə qismən) razılığını ifadə edib.

❑ Respondentlər müharibədən sonrakı dövrdə də Prezidentin media sisteminin təkmilləşdirilməsi məqsədilə bu sahədə aparılan islahatları təqdir ediblər. Onların fikrincə, bu islahatlar mediada peşəkarlığı, şəffaflığı, azadfikirliliyi, ictimai-siyasi problemlərin işıqlandırılma imkanlarını artıracaq, həmçinin Azərbaycanın beynəlxalq media sahəsində əlaqələrini və reklam bazarını gücləndirəcək, iqtisadi bazisi formalaşdıracaq, media qurumları arasında rəqabəti dərinləşdirəcək, ölkəmizə olan xarici informasiya hücumlarını azaldacaq və medianı müxtəlif qrupların təsirindən çıxaracaq.

❑ Sorğuların nəticələri və aparılan müşahidələr göstərir ki, Prezidentin yerli və xarici media nümayəndələrinə müsahibələrinə və çıxışlarına dair əsas informasiya mənbələri kimi respondent rəyində ilk sıralarda TV kanalları (76,6%) və sosial media platformaları (53,2%) qərarlaşıb.

❑ Respondentlərin fikrincə, Prezidentin azad edilmiş ərazilərə səfərləri Qarabağın dirçəlişinin və qayıdışın tezliklə reallaşmasının, Ali Baş Komandanın bütün quruculuq tədbirlərinə bilavasitə rəhbərlik etməsinin, Azərbaycanın ərazi bütövlüyünün təminatının, Prezidentin tarixi abidələrə xüsusi önəm verməsinin, işğaldan azad olunmuş ərazilərimizdə sabitlik və təhlükəsizliyin təminatının, Böyük Qayıdışa Prezidentin verdiyi əhəmiyyətin, Vətənə, xalqa, milli-mənəvi, tarixi və mədəni dəyərlərə verilən xüsusi önəmin, bütün dünya azərbaycanlılarının Qarabağın dirçəlişinə cəlb etməsinin, işğaldan azad edilmiş ərazilərin inkişafını və bölgəyə investisiya yatırımını stimullaşdırmasının, Ermənistandakı qüvvələrə və onların havadarlarına xəbərdarlığının və informasiya müharibəsinə töhfə verməsinin göstəricisidir.

❑ Sorğuda iştirak edənlər Prezidentin Qələbə tonqalını Şuşada - Cıdır düzündə qalamasını qələbə, şəhidlərimizin qanı ilə qazanılmış Şuşa zəfərinin təntənəsi/qələbə

simvolu, Şuşanın Azərbaycanın mənəvi-mədəni paytaxtı olmasının dünyaya nümayişi, vətənpərvərlik, torpaq və bayraq sevgisi, Prezidentin dəyər və ənənələrimizə sadiqliyi, milli birlik, ərazi bütövlüyü, həmrəylik, tarixi irsin xilası, Qarabağda bərpa və quruculuq strategiya və planları kimi dəyərləndirib və bununla Prezidentin dünyaya mesajlar verdiyini bildiriblər.

❑ Respondentlər Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə həyata keçirdiyi bütün tədbirləri yüksək qiymətləndiriblər. Ümumiyyətlə, Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə respondentlərin əksəriyyəti (84,6%) tam razıdır.

❑ "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sırasında əksini tapan işğaldan azad olunmuş ərazilərə böyük qayıdış respondentlərin böyük bir qismi (71.9%) tərəfindən ilk sırada çəkilib.

❑ Prezidentin işğaldan azad olunmuş ərazilərdə mövcud olan tarix, mədəniyyət və dini abidələrimizin bərpası ilə bağlı fəaliyyəti respondentlərin əksəriyyəti tərəfindən rəğbətlə qarşılanır. Belə ki, respondentlər belə düşünürlər ki, Prezidentin Azıx mağarasına getməsi işğaldan azad edilmiş bütün ərazilərimizdəki tarix və mədəniyyət abidələrinin bərpa ediləcəyindən xəbər verir. Sorğuda iştirak edənlərin bir qismi Prezident İlham Əliyevi Azərbaycan mədəniyyəti və tarixi ilə bağlı Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi görür. Respondentlərin fikrincə, Prezidentin Şuşada Natəvanın abidəsinin açılışında iştirak etməsi, Vaqifin büstünü və məqbərəsini ziyarət etməsi Qarabağa xüsusi diqqətinin təzahürüdür. Bəzi respondentlər bu qənaətdədir ki, bu, Azərbaycanın tarixi-mədəni irsinə hörmətin, sevginin və qayğının göstəricisidir.

❑ Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonrakı dövr üçün respondentlərin gözləntiləri bir neçə istiqamət üzrə özünü büruzə verir. Belə ki, əsas gözləntilər ölkəmizin siyasi-iqtisadi gücünün artacağı və regionda mövqeyinin güclənəcəyi, Ermənistan üzərində təsirinin daha da artacağı ilə bağlıdır. Bundan başqa, respondentlərin bir qismi Azərbaycan və Türkiyənin regionun taleyinin müəyyənləşməsində mühüm rol oynayacağını, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qəbul edəcəyini, regional əməkdaşlığın və inteqrasiyanın sürətlənəcəyini, Türkiyənin regionda hərbi iştirakının artacağını, Rusiya, Türkiyə və Azərbaycan müttəfiqliyinin güclənəcəyini düşünür.

❑ Vətən müharibəsindən sonrakı dövr üçün əhalinin əsas gözləntilərindən biri də II Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçıları ilə bağlı dövlətin sosial siyasətinin düzgün həyata keçirilməsidir. Cari sorğunun nəticələri və aparılan müşahidələr göstərir ki, II Qarabağ müharibəsindən sonra əhali arasında bəzi sosial məsələlərlə bağlı narahatlığın qalması hallarına rast gəlinir.

❑ Respondentlərin əksəriyyəti son 3 ayda Prezidentə inam və etimadının artdığını bildirib. Tədqiq edilən dövrdə Prezidentə inam və etimadın artması sosial-iqtisadi həyatda baş verən proseslər, Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi layihələr və islahatlarla bağlıdır.

❑ Respondentlərin 62,6%-i son bir il ərzində problemləri ilə bağlı daha çox aidiyyəti nazirlik və agentliyə, yerli icra hakimiyyəti orqanlarına müraciət etdiklərini qeyd ediblər. Onların 55,8%-i müraciətinin nəticəsindən heç razı qalmadığını, 20,1%-i müraciəti əsasında hələ də konkret bir nəticə olmadığını vurğulayıb. Bu, bir daha göstərir ki, əhalinin müraciətlərinə aidiyyəti dövlət orqanları (qurumlarına) tərəfindən baxılması hallarından narazılıq çoxdur. Bu da həmin dövlət orqanlarına (qurumlarına) əhalinin az etibar etməsinə gətirib çıxarır.

❑ Respondentlərin 36,1%-nin fikirincə, Prezident vətəndaşların vəziyyətindən tam, 39%-nin qənaətinə görə isə müəyyən qədər məlumatlıdır. Bunun əksinə olaraq 17,7% respondent bu fikirdədir ki, Prezident vətəndaşların vəziyyətindən az məlumatlıdır, yaxud heç bir məlumatı yoxdur (6.6%).

❑ Rəyi soruşulanların dördə bir hissəsi (24,9%) belə düşünür ki, yerlərdə baş verən bütün hadisələr Prezidentə olduğu kimi çatdırılır. 63,6% respondentin fikrincə, Prezidentə yalnız müsbət məlumatlar çatdırılır. Bunun ək-

sinə, 5,5% respondent belə düşünür ki, Prezidentə yalnız mənfi məlumatlar çatdırılır.

❑ Bundan başqa, sorğuda iştirak edənlərin üçdə bir hissəsi son bir ildə məmurların qanun pozuntusu ilə rastlaşmadığını, 65,6%-i isə rastlaşdığını bildirib. Respondentlərin yarıdan bir qədər az hissəsi məmurların qanun pozuntusu ilə bağlı hər hansı quruma/orqana müraciət etmədiyini, yarıdan çoxu isə müraciət etdiyini bildirib.

❑ Respondentlər işıq və elektrik, qaz, telefon şəbəkəsi, içməli su təchizatından razı qaldıqlarını ifadə etdikləri halda, bunun əksinə olaraq yaşadıqları ərazidəki yolların vəziyyətindən, bələdiyyənin fəaliyyətindən, internet təchizatından, yaşadığı ərazinin icra hakimiyyətinin fəaliyyətindən, yaşadığı ərazidəki ictimai nəqliyyatın vəziyyətindən, suvarma ilə bağlı su təchizatından, mənzil-kommunal istismar sahəsinin fəaliyyətindən heç razı qalmadıqlarını qeyd ediblər.

❑ Respondentlər son 3 ayda əsasən istehlak məhsullarının qiymətinin bahalaşmasından şikayətlərin artmasını, ətrafında işsiz (yəni pandemiya dövründə iş yeri potensial risk altına düşən və yaxud işi olub, əlavə iş axtaran) insanların sayının artmasını, azad olunmuş torpaqlara qayıdış əhval-ruhiyyəsinin olduğunu, dünyanın pandemiyadan önceki vəziyyətinə tezliklə qayıtması ilə bağlı gözləntilərin artmasını, yoxsullaşmanı, milli birliyin güclənməsini, dövlətə inamın artmasını müşahidə ediblər. Bununla yanaşı, rəyi soruşulanların bir hissəsi insanların rifahının yaxşılaşacağına ümidin artmasını, ətrafında vaksinasiyaya inamsızlığın hələ də qalmasını, yaxın ətrafında COVID-19-a yoluxma hallarının artmasını müşahidə edib.

❑ Sorğuda iştirak edənlər ölkədə onları ən çox narahat edən problemləri belə sıralayıblar: işsizlik, təhsilin vəziyyəti, insanların maddi durumu, Xankəndi, Xocalı və Xocavəndin taleyinin müəyyən olunmaması, pandemiyaya görə iş yerlərinin müvəqqəti bağlanması, məmur özbaşınalığı, Rusiya sülhməramlı qüvvələrinin Dağlıq Qarabağda mövcudluğu, səhiyyə sistemi ilə bağlı problemlər, sosial problemlərin həll olunmaması, korrupsiya, COVID-19 pandemiyası ilə bağlı karantin rejiminin tətbiqi, əhalinin şikayətlərinə, müraciətlərinə baxılması vəziyyəti.

❑ Aparılmış tədqiqatın nəticələri göstərir ki, vətəndaşların Prezidentdən əsas gözləntisi əhalinin sosial rifahının daha da yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin yüksək səviyyədə təmin edilməsi, qiymətlərin bahalaşmasının və məmur özbaşınalığının qarşısının alınmasıdır.

❑ Respondentlərin 28,4%-nin qənaətinə görə, son 2 ildə siyasi partiyalar sistemində baş verən dəyişikliklər heç bir şey ifadə etmir. Rəyi soruşulanların 27,3%-i isə əksinə bu qənaəti bölüşür ki, son 2 ildə siyasi partiyalar sistemində baş verən dəyişikliklər siyasi həmrəyliyi, inteqrasiya və milli birliyi əks etdirir. 22.2% respondent son 2 ildə siyasi partiyalar sistemində baş verən dəyişiklikləri yeni siyasi sistemin formalaşması kimi dəyərləndirib.

❑ Respondentlərin prezident, bələdiyyə və Milli Məclisə seçkilərdə iştirakçılığının müqayisəsi göstərir ki, əhalinin prezident seçkilərinə marağı daha çoxdur. Bu da qanunverici və icraedici orqanlara nisbətdə Prezidentə əhalinin böyük inam və etibar etməsindən irəli gəlir.

❑ Sorğunun nəticələri göstərir ki, respondentlərin bəzi beynəlxalq təşkilatlara inam və etibarı azaldığı halda, bəzilərinə artıb. Sorğuda iştirak edənlərin fəaliyyətini çox pis qiymətləndirdiyi və ən az etibar etdiyi beynəlxalq təşkilat ATƏT-dir. Bunun əksinə olaraq respondentlər Qoşulmama Hərəkatının və ICESCO-nun fəaliyyətini təqdir edir və onlara daha çox etibar edirlər. Vətən müharibəsi dövründə və ondan sonrakı dövrdə bu qurumların Azərbaycanın haqlı mövqeyini müdafiə etməsi və konkret addımlar atması əhali arasında onlara rəğbəti artırıb.

QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az